RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 163 (9908) 7 avqust 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Donald Trampın təklifi ilə

### Ağ Evdə tarixi görüş olacaq



**Prezident İlham Əliyev ABŞ-yə səfər edəcək. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə reallaşan bu səfər zamanı İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanla görüşəcək.**

Ağ Evdən "Bloomberg" agentliyinə göndərilən daxili planlaşdırma sənədində bu barədə açıq qeyd olunub. Bildirilir ki, Donald Tramp bu həftənin cümə günü Azərbaycan və Ermənistan liderləri ilə görüş keçirəcək. Sənədə əsasən, avqustun 8-də (cümə günü) Tramp Bakı vaxtilə saat 22:30-da Ermənistanın baş naziri ilə, 23:20-də isə Azərbaycan Prezidenti ilə ikitərəfli görüşlər keçirəcək. Ardınca isə Bakı vaxtilə saat 00:00-da hər iki liderin iştirakı ilə birgə bəyanat veriləcək.

Bu onu göstərir ki, Donald Tramp Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanmasında və Zəngəzur dəhlizinin açılmasında çox maraqlıdır. İkinci Qarabağ müharibəsinin başa çatmasından 5 ilə yaxın zaman keçsə də, tərəflər arasında sülh müqaviləsinin imzalanmamasının səbəbi bəllidir. Yəni sülh müqaviləsi ancaq Azərbaycan Prezidentinin tələbləri yerinə yetiriləcəyi halda imzalana bilər.

Azərbaycan-ABŞ tərəfdaşlığının 33 ildən artıq tarixi var. Bu illər ərzində ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmət və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıyıb, diplomatik münasibətlər isə 28 fevral 1992-ci ildə qurulub. Azərbaycanın ABŞ-də səfirliyi 1992-ci il martın 6-dan, ABŞ-nin Azərbaycanda səfirliyi isə həmin il martın 16-dan fəaliyyət göstərir. Bu illər ərzində Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında 90-a yaxın sənəd imzalanıb və genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılıb. 1997-ci ildən Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Hazırda iki ölkə arasında siyasi əlaqələr dinamik olaraq inkişaf edir. İki ölkənin liderləri arasında olan səmimi münasibətlər Azərbaycan-ABŞ əməkdaşlığında yeni səhifə açıb.

Məhz Donald Trampın birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənib. Bunu Prezident İlham Əliyevin seçkilərdə qələbə qazanması münasibətilə Donald Trampa açdığı telefon zamanı liderlərin danışığından eşitmişik. İlham Əliyev seçkilərdə inamlı qələbənin Amerika xalqının Donald Trampın yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsi olduğunu vurğulayaraq qeyd etmişdi ki, Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq.

4

# TƏŞƏBBÜSKAR VƏ BİRLƏŞDİRİCİ LİDER



Hər bir dövlət qarşısına qoyduğu məqsədə çatmaq üçün özünə məxsus olan siyasi kursla irəliləməlidir.

Başqa sözlə desək, ilk növbədə özünü, öz hədəflərini düşünməlidir.

Bunun üçün isə hökmən müstəqil daxili və xarici siyasət yürütməlidir.

Ən əsası kiminsə, yaxud kimlərinsə təsir və təzyiqlərinə boyun əyərək tutduğu yoldan kənara çəkilməməli, necə deyərlər, özgə maraqlarına görə öz maraqlarını qurban verməməlidir!

Müasir dünyada bunu etmək çox çətin və mürəkkəb məsələdir.

Başqalarının diktəsi ilə və ya öz istəyi ilə yeni yola qədəm qoyan, sonra isə yeni tələbləri qarşılaya bilməyərək təlatümlərə uğrayan, sabitliyi və ənənəvi inkişafı pozulan dövlətlərin hansı problemlərə və bəlalara, hətta ərazi itkilərinə məruz qaldıqlarının dəfələrlə şahidinə çevrilmişik.

Yaxın keçmişdə Azərbaycanın dəfələrlə yanlış siyasətin və səhv addımların ağrı-acılarını yaşamasını unutmamışıq.

Əgər Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıtmasaydı, Azərbaycanın düzgün siyasi xəttini müəyyənləşdirərək ölkədə möhkəm və dönməz sabitlik yaratmasaydı, müstəqilliymizi əbədiliyə və dönməzliyə çevirməsəydi, yəqin ki, Azərbaycan müxtəlif qovğalar və siyasi burulğanlar girdabında yolunu azaraq parçalanmış vəziyyətə düşərdi.

Cənab İlham Əliyevin ən böyük tarixi xidmətlərindən biri də o oldu ki, daim Heydər Əliyev siyasi kursuna sadiq qaldı, bütün əngəllərə və çətinliklərə baxmayaraq, milli maraqlara söykənən müstəqil siyasət yeritdi, heç bir xarici təsirə uymadı, təzyiq və təhdidlərə heç zaman boyun əymədi!

Azərbaycanın müstəqil siyasətinin, necə deyərlər, "Axilles dabanı" Dağlıq Qarabağ münaqişəsi idi.

Ölkənin təbii sərvətlərinə ağalıq etmək istəyənlər, bizi yolumuzdan döndərərək öz iradələrinə tabe etməyə cəhd göstərənlər məhz bu zəif yerimizdən istifadəyə çalışırdılar.

İlham Əliyevin dahiliyi və uzaqgörənliyi, qətiyyət və prinsipiallığı sayəsində ikiəsrlik tarixi olan otuzillik işğala Zəfərlə son qoyuldu, düşmən qarşımızda diz çökərək tam məğlubiyyətini etiraf və təsdiq etdi!

44 günlük Zəfər müharibəsinə qədər də Heydər Əliyev siyasi kursu ilə dönmədən irəliləyən müstəqil Azərbaycan ərazi bütövlüyünü, dövlət suverenliyini və Konstitusiya əsaslarını bərpa etdikdən sonra daha qüdrətli və inamlı olmuş, bir-birindən möhtəşəm layihələrin icrasına başlamışdır.

Çox fərəhli bir haldır ki, Azərbaycan kimsədən dəvət, yardım, hansı şərtlərləsə hansısa layihədə iştiraka çağırılacağını, qarşısına hansısa şərtlər qoyulacağını gözləmir.

Əksinə, özü möhtəşəm layihələr reallaşdırır, özünə yeni dostlar və tərəfdaşlar taparaq bütün tərəflərə inkişaf və mənfəət gətirən işlər görür.

Tanrı Azərbaycana zəngin yeraltı və yerüstü sərvətlər, neft və təbii qaz kimi bütün dünyanın daim ehtiyac duyduğu karbohidrogen ehtiyatları verib.

Ölkəmiz qırmızı imperiyanın tərkibində olduğu illər ərzində öz sərvətlərinə sahiblik edə bilməyib.

"Adı mənim, dadı sənin" olub.

İmperiyasevər qüvvələr də bu sərvətdən və illər boyu havayı qazanclarından əl çəkmək istəməyiblər.

Nəinki əl çəkiblər, hətta müxtəlif vasitələrlə Azərbaycanı itaət boyunduruğunda saxlamağa çalışıblar və bu yolda müxtəlif məkrli planlardan və təsir vasitələrindən istifadə ediblər.

Müstəqil siyasət yürütdüyü ilk günlərdən Azərbaycanın bir problemi də belə məkrli planlara və təhdidlərə tab gətirmək, mübarizə aparmaq və onları zərərsizləşdirmək olub.

Ötən əsrin doxsanıncı illərinin əvvəllərində ölkəyə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz, dünya siyasətindən yetərincə baş çıxara bilməyənlərin rəhbərlik etməsi, onların atdıqları yanlış addımlar ölkəni fəlakət sərhədinə qədər gətirib çıxardı.

Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıtması Azərbaycanı əvvəllərdə olduğu kimi, kiçik xanlıqlara bölünməkdən qurtardı.

Ulu Öndər Heydər Əliyev ölkəyə ikinci rəhbərliyinin ilk günlərindən Azərbaycanı müstəqil dövlətə çevirmək, sabitliyi bərpa etmək, iqtisadiyyatı inkişaf etdirmək, ardıcıl, sistemli və təsirli tədbirlər həyata keçirməklə məşğul oldu.

Lakin Azərbaycanı müstəqil və sabit ölkə kimi görmək istəməyənlər bundan dərin rəncidəyə düşdülər.

2

## Prezident İlham Əliyev Yamaykanın Baş nazirini təbrik edib

### Yamaykanın Baş naziri zati-aliləri cənab Endryu Holnessə

Hörmətli cənab Baş nazir!

Yamaykanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Bu il Azərbaycan ilə Yamayka diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümünü qeyd edəcəklər. Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 avqust 2025-ci il*

## Moskva Bakı ilə münasibətlərə zərbə vurur

### Rusiya Azərbaycanla informasiya müharibəsi aparır



2023-cü ildə Qarabağda keçirilən antiterror tədbirləri sayəsində torpaqlarımızda separatizmə son qoyuldu, suverenliyimiz təmin olundu, konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi. Bu sayədə Rusiya sülhməramlı kontingentinin ərazilərimizdə fəaliyyətinə heç bir lüzum qalmadı. Qeyd edək ki, Rusiya sülhməramlılarının ərazilərimizdən çıxarılması Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində baş verib. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatında sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi maddəsinin öz əksini tapması və burada "müvəqqəti" şərtinin qoyulması da Prezident İlham Əliyevin israrı sayəsində mümkün olmuşdu. Dövlətimizin rəhbərinin qətiyyətli siyasətinin təzahürü kimi, 2024-cü ildə bu proses məntiqi sonluğuna çatdırıldı. Onu da vurğulayaq ki, adıçəkilən hərbi kontingent ərazilərimizdə qanunsuz fəaliyyəti ilə diqqət çəkirdi. Xankəndidə rəssam İvan Ayvazovskinin büstünün qeyri-qanuni şəkildə quraşdırılması da bu qanunsuzluqdan biri idi. Hansı ki, haqlı olaraq Azərbaycan tərəfindən demontaj olunan bu büst ətrafında Rusiya süni ajiotaj yaradaraq müxtəlif platformalarda ölkəmizə qarşı qərəz kampaniyası aparır.

5

## Dünyanın gözü Ağ Evdə, Makron isə Azərbaycandakı səfirini geri çağırır

### Nə var - nə var - Qarabağa səfər edib



Birmənalı olaraq qeyd edə bilərik ki, Fransa Ermənistan-Azərbaycan münaqişəsinin ideya müəlliflərindən biridir. Bu ölkə istər problemin həllində vasitəçilik məqsədilə yaradılmış ATƏT-in Minsk qrupuna həmsədrlik etdiyi zamanda, istərsə də 2020-ci ildə Azərbaycan öz torpaqlarını hərbi yolla azad etdikdən sonra iki ölkə arasında sülh yaratmaqdan çox sülhə mane olan, münaqişə yaradan tərəf kimi fəaliyyət göstərib. 44 günlük Vətən müharibəsi dövründə Fransa parlamentinin keçmiş "Dağlıq Qarabağ"ın müstəqilliyinin tanınması barədə qətnamə qəbul etməsi yəqin ki, çoxlarının yadındadır. Həm də o yadındadır ki, rəsmi Paris Ermənistan üzərindən regionda möhkəmlənmək üçün əl altında saxladığı beynəlxalq və regional təşkilatlar vasitəsilə Azərbaycana davamlı təzyiqlər göstərməyə cəhd edirdi. Bununla da kifayətlənməyib iki ölkə arasında münaqişəni qızışdırmaq üçün məğlub olmuş ölkəni silahlandırmaq yolunu da tutmuşdu. Amma bu zaman nəzərdən qaçırırdı ki, Azərbaycanın dövlət maraqlarını və mövqeyini nəzərə almadan Cənubi Qafqazda möhkəmlənmək faktiki olaraq mümkün deyil.

4




# TƏŞƏBBÜSKAR VƏ BİRLƏŞDİRİCİ LİDER

Hər bir dövlətin qarşısında müəyyən vəzifələr durur.

Bu onun inkişafı, təhlükəsizliyi, maddi sərvətlərindən istifadəsi, əhalisinin sosial rifahı və digər zəruri məsələlərlə bağlı olur.

Bütün bunların uğurlu həlli, qarşıya qoyulan məqsədlərə çatmaq üçün konkret yollar və üsullar müəyyənləşdirilir, imkanlar səfərbərliyə alınır, layihələr hazırlanır, əməkdaşlıqlar qurulur.

*Düşünülənləri və icrası vacib olanları həyata keçirmək məqsədilə dövlət siyasəti hazırlanır və mərhələlərlə həyata keçirilir.*

**O yerdə ki düzgün hesablamalara, real imkanlara əsaslanan siyasət qurulur, orada uğur da təmin olunur!**

Hədəfə yetməyin mühüm şərtlərindən biri də görüləcək işləri və vəzifələri dəqiqləşdirərək məqsədə çatmağın üsul və vasitələrini hazırlayan, bu istiqamətdəki daxili və xarici siyasəti işləyərək onun həyata keçirilməsini təmin edən rəhbərin - siyasi liderin zəkasından, uzaqgörənliyindən və siyasi fəhmindən də asılıdır.

❖ ❖ ❖

Hər bir dövlət qarşısına qoyduğu məqsədə çatmaq üçün özünə məxsus olan siyasi kursla irəliləməlidir.

Başqa sözlə desək, ilk növbədə özünü, öz hədəflərini düşünməlidir.

Bunun üçün isə hökmən müstəqil daxili və xarici siyasət yürütməlidir.

*Ən əsası kiminsə, yaxud kimlərinsə təsir və təzyiqlərinə boyun əyərək tutduğu yoldan kənara çəkilməməli, necə deyərlər, özgə maraqlarına görə öz maraqlarını qurban verməməlidir!*

Müasir dünyada bunu etmək çox çətin və mürəkkəb məsələdir.

**Başqalarının diktəsi ilə və ya öz istəyi ilə yeni yola qədəm qoyan, sonra isə yeni tələbləri qarşılaya bilməyərək təlatümlərə uğrayan, sabitliyi və ənənəvi inkişafı pozulan dövlətlərin hansı problemlərə və bəlalara, hətta ərazi itkilərinə məruz qaldıqlarının dəfələrlə şahidinə çevrilmişik.**

*Yaxın keçmişdə Azərbaycanın dəfələrlə yanlış siyasətin və səhv addımların ağrı-acılarını yaşamasını unutmamışıq.*

**Əgər Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıtmasaydı, Azərbaycanın düzgün siyasi xəttini müəyyənləşdirərək ölkədə möhkəm və dönməz sabitlik yaratmasaydı, müstəqilliymizi əbədiliyə və dönməzliyə çevirməsəydi, yəqin ki, Azərbaycan müxtəlif qovğalar və siyasi burulğanlar girdabında yolunu azaraq parçalanmış vəziyyətə düşərdi.**

*Cənab İlham Əliyevin ən böyük tarixi xidmətlərindən biri də o oldu ki, daim Heydər Əliyev siyasi kursuna sadiq qaldı, bütün əngəllərə və çətinliklərə baxmayaraq, milli maraqlara söykənən müstəqil siyasət yeritdi, heç bir xarici təsirə uymadı, təzyiq və təhdidlərə heç zaman boyun əymədi!*

**Azərbaycanın müstəqil siyasətinin, necə deyərlər, "Axilles dabanı" Dağlıq Qarabağ münaqişəsi idi.**

*Ölkənin təbii sərvətlərinə ağalıq etmək istəyənlər, bizi yolumuzdan döndərərək öz iradələrinə tabe etməyə cəhd göstərənlər məhz bu zəif yerimizdən istifadəyə çalışırdılar.*

**İlham Əliyevin dahiliyi və uzaqgörənliyi, qətiyyət və prinsipiallığı sayəsində ikiəsrlik tarixi olan otuzillik işğala Zəfərlə son qoyuldu, düşmən qarşımızda diz çökərək tam məğlubiyyətini etiraf və təsdiq etdi!**

*44 günlük Zəfər müharibəsinə qədər də Heydər Əliyev siyasi kursu ilə dönmədən irəliləyən müstəqil Azərbaycan ərazi bütövlüyünü, Dövlət suverenliyini və Konstitusiya əsaslarını bərpa etdikdən sonra daha qüdrətli və inamlı olmuş, bir-birindən möhtəşəm layihələrin icrasına başlamışdır.*

Çox fərəhli bir haldır ki, Azərbaycan kimsədən dəvət, yardım, hansı şərtlərləsə hansısa layihədə iştiraka çağırılacağını, qarşısına hansısa şərtlər qoyulacağını gözləmir.

Əksinə, özü möhtəşəm layihələr reallaşdırır, özünə yeni dostlar və tərəfdaşlar taparaq bütün tərəflərə inkişaf və mənfəət gətirən işlər görür.

❖ ❖ ❖

Tanrı Azərbaycana zəngin yeraltı və yerüstü sərvətlər, neft və təbii qaz kimi bütün dünyanın daim ehtiyac duyduğu karbohidrogen ehtiyatları verib.

Ölkəmiz qırmızı imperiyanın tərkibində olduğu illər ərzində öz sərvətlərinə sahiblik edə bilməyib.

"Adı mənim, dadı sənin" olub.

İmperiyasevər qüvvələr də bu sərvətdən və illər boyu havayı qazanclarından əl çəkmək istəməyiblər.

Nəinki əl çəkiblər, hətta müxtəlif vasitələrlə Azərbaycanı itaət boyunduruğunda saxlamağa çalışıblar və bu yolda müxtəlif məkrli planlardan və təsir vasitələrindən istifadə ediblər.

**Müstəqil siyasət yürütdüyü ilk günlərdən Azərbaycanın bir problemi də belə məkrli planlara və təhdidlərə tab gətirmək, mübarizə aparmaq və onları zərərsizləşdirmək olub.**

*Ötən əsrin doxsanıncı illərinin əvvəllərində ölkəyə maymaq, qorxaq, təcrübəsiz və səriştəsiz, dünya siyasətindən yetərincə baş çıxara bilməyənlərin rəhbərlik etməsi, onların atdıqları yanlış addımlar ölkəni fəlakət sərhədinə qədər gətirib çıxardı.*

Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın arzu və tələbi ilə ölkə rəhbərliyinə qayıtması Azərbaycanı əvvəllərdə olduğu kimi, kiçik xanlıqlara bölünməkdən qurtardı.

Ulu Öndər Heydər Əliyev ölkəyə ikinci rəhbərliyinin ilk günlərindən Azərbaycanı müstəqil dövlətə çevirmək, sabitliyi bərpa etmək, iqtisadiyyatı inkişaf etdirmək, ardıcıl, sistemli və təsirli tədbirlər həyata keçirməklə məşğul oldu.

Lakin Azərbaycanı müstəqil və sabit ölkə kimi görmək istəməyənlər bundan dərin rəncidəyə düşdülər.

*İki dəfə - 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə cəhd edərək yenidən ölkəni xaos və anarxiya burulğanına qaytarmaq istədilər.*

**Ulu Öndər Heydər Əliyevin cəsarətli və qətiyyətli addımları, xalqın öz rəhbərinə verdiyi güclü dəstək mənfur planları iflasa uğratdı.**

*Bundan sonra Ulu Öndərimiz Azərbaycanın müstəqil siyasi kursunu formalaşdırmağa başladı.*

Ən əvvəl ölkənin iqtisadi dirçəlişinə nail olmaq, xalqın sosial rifahını yüksəltmək gərək idi.

Məqsədə tez çatmağın yolu isə Azərbaycanın malik olduğu karbohidrogen ehtiyatlarını müstəqil şəkildə dünya bazarına çıxarmaqdan keçirdi.

Burada da ciddi çətinliklər vardı.

**Uzun illər AXC-Müsavat cütlüyü iqtidarının danışıqlar aparıb, heç nəyə nail ola bilmədiklərini Ulu Öndər Heydər Əliyev tez bir zamanda gerçəkləşdirdi.**

**Böyük çətinliklərdən sonra "Əsrin müqaviləsi" adını alan neft kontraktı imzalandı.**

*Ən mühüm məsələlərdən biri isə Xəzər neftinin qeyri-ənənəvi marşrutla, Rusiyadan yan keçən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə dünya bazarına çıxarılması oldu!*

Beləliklə, Azərbaycan öz neftini müstəqil şəkildə və heç kəsin mane ola bilməyəcəyi marşrutla dünya bazarına çatdırdı.

İkincisi isə, bu yolla neft gəlirlərinin iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldilməsini təmin etdi.

**Heydər Əliyev siyasi kursuna sədaqətlə xidmət edən Prezident İlham Əliyev öz fəaliyyəti dövründə daim bu prinsipə sadiq qaldı, Azərbaycanın dönmədən milli maraqlara söykənən siyasət yürütməsinə nail oldu.**

*Digər transmilli layihələr - Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu xətti də çəkildi.*

**Həm Ulu Öndər Heydər Əliyevin, həm də cənab İlham Əliyevin ölkəyə rəhbərlikləri dövründə Azərbaycan daim yeni təşəbbüslər, ideyalarla çıxış etmiş, sonra həmin ideyaları öz gücünə həyata keçirmiş, daha sonra isə tərəfdaşlarını və dost ölkələrini də yeni layihələrə cəlb edərək onların da bəhrələnmələrinə imkan yaratmışdır.**

❖ ❖ ❖

*Artıq İlham Əliyev Azərbaycanının inkişaf və tərəqqisinin yeni dövrü başlamışdır.*

*Bu dövrü şərtləndirən bir neçə faktor vardır.*

*Əvvəla,* Azərbaycan dünya dövlətləri üçün böyük maraq kəsb edən bir neçə nəqliyyat dəhlizini - Şərq-Qərb və Şimal-Cənub dəhlizlərini yaratmışdır.

Hazırda dünyada gedən müharibələr fonunda daha təhlükəsiz, eyni zamanda yüklərin mənzil başına daha tez çatdırılmasını təmin edən Orta dəhliz ideyasını gerçəkləşdirmişdir.

*İkincisi,* Azərbaycan özünün baş problemini - Dağlıq Qarabağ münaqişəsini zəfərlə həll etdikdən sonra bu faktdan istifadə edərək kimsə ona təzyiq göstərə bilmir, yalnız öz maraqlarını əsas tutaraq zəruri hesab etdiyi addımlarını atır.

*Üçüncüsü,* yeni dünya düzəni formalaşmaqdadır və Azərbaycan bu prosesdə sərbəst oyunçu kimi iştirak etməyi bacarır.

*Ən nəhayət,* ölkəmiz öz təşəbbüsləri, hamıya fayda gətirəcək real təklifləri ilə dostlarının və strateji tərəfdaşlarının sayını artırmaqla təkcə bu günə deyil, gələcəyə ünvanlanmış layihələri üçün də yeni-yeni iştirakçılar toplayır.

**Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bəyan edilən əməkdaşlıq prinsipləri isə dəyişməzdir!**

Özünün təbirincə desək:

*"Biz tərəfdaşlığa və dostluğa açığıq. Ancaq o halda ki, bizim daxili işlərimizə müdaxilə edilmir və bizə yad olan dəyərlər bizə aşılanmır. Bu, bizim mövqeyimizdir".*

❖ ❖ ❖

Daim özünə qapanan, qonşuları ilə yola getməyən və başqaları ilə əməkdaşlıq qurmayan ölkələr inkişaf edə, iqtisadi cəhətdən yüksələ bilməzlər!

Bu, birmənalıdır!

Ermənistanın düşdüyü hazırki vəziyyət isə deyilənlərin sübutudur!

Heç bir dövlət özünə lazım olanların hamısını özündə tapmır və ya istehsal etmir!

Odur ki, digər dövlətlərlə əməkdaşlıq qurmağa, iqtisadi-ticari əlaqələr yaratmağa məcburdur.

Tanrı bu sarıdan Azərbaycana çox pay verib:

Zəngin kapbohidrogen ehtiyatları, yeraltı qazıntı yataqları, dünyadakı mövcud on iki iqlimdən doqquzunun ölkəmizdə olması, təbiət zənginliyi Allahın bizə böyük lütfüdür.

*Sərvət sahibi olmaq bir şeydir, ondan gərəyincə bəhrələnə bilmək isə bambaşqadır!*

**Azərbaycan Prezidenti cənab İlham Əliyev bəsirətliliyə, uzaqgörənliyə, hadisələrin inkişafını irəlicədən müəyyənləşdirmək və qabaqlamaq istedadına da malikdir.**

**İlham Əliyev yaradan, quran, birləşdirən, hamıya fayda gətirən liderdir!**

Yeni dünya düzəninin formalaşdığı indiki çətin və mürəkkəb şəraitdə onun dəfələrlə atdığı müdrik addımların şahidinə çevrilmişik.

Dünya gücləri son əsrlər ərzində türk dünyasının və müsəlman ölkələrinin inkişafını, onların birləşməsini əngəlləmiş, əksinə aralarında daim qarşıdurma yaratmağa çalışmış və buna uğurla nail də olmuşlar.

*Ermənilərin Türkiyədən və dünyanın digər dövlətlərindən gətirilərək Azərbaycan torpaqlarında yerləşdirilməsi, onlara vassal dövlət yaradaraq onun vasitəsilə Türkiyənin Cənubi Qafqaza çıxışının qarşısının alınması belə məkrli oyunlardandır.*

Qırmızı imperiya dağıldıqdan sonra SSRİ ərazisindəki türk-müsəlman dövlətlərinin birliyinə və əməkdaşlığına da daim şüurlu şəkildə maneələr yaradılmışdır.

**Son illərdə İlham Əliyevin təşəbbüsü və bir çox hallarda təşkilatçılığı ilə yaranan yeni əməkdaşlıq formatları isə türk dövlətlərinin birliyinə xidmət edir.**

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr qədim tarixə, milli kökə və ənənələrə malikdir.

Lakin sovetlər ittifaqı dövründə qırmızı imperiya rəhbərliyi daim bizi ayrı salmağa, bu bağları qırmağa çalışmışdır.

*Azərbaycanın müstəqil dövlətə çevrilməsi, dünya çaplı lider Rəcəb Tayyib Ərdoğanın sayəsində isə qardaş Türkiyənin qlobal dövlət olması, üstəlik hər iki dövlət başçısı arasında səmimiyyətə əsaslanan dostluq və qardaşlıq münasibətləri bizi "bir millət, iki dövlət" səviyyəsinə çatdırmışdır.*

**Türkiyə ilə Azərbaycanın daim bir-birinin yanında olması, əlbir və əlaqəli addımlar atması çox ciddi və müsbət nəticələr vermiş və verməkdədir.**

Zəfər müharibəsi başlayandan dərhal sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və digər dövlət rəsmilərinin açıq bəyanatlar verərək daim bizimlə birlikdə olduqlarını bəyan etmələri böyük çəkindirici rol oynadı!

**Türkiyədə baş verən zəlzələ zamanı isə ilk olaraq qardaş köməyinə gedən, əlindən gələn yardımı göstərən Azərbaycan oldu!**

Kahramanmaraşda inşa edilən "Azərbaycan" məhəlləsi isə həmin ağır günlərin sınağından alnıaçıq çıxan iki qardaş xalqın birliyinə ucaldılan abidə də sayıla bilər!

**Türk Dövlətləri Təşkilatının fəaliyyətinin yenidən canlanmasında və bu təşkilatda əməkdaşlığın güclənməsində İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın böyük xidmətləri vardır.**

Azərbaycan reallaşdırdığı bütün layihələrində qardaş Türkiyəni unutmamış, daim ona da iqtisadi faydalar vermişdir.

Heç də təsadüfi deyildir ki, Şuşada imzalanan Bəyannamə iki qardaş dövlətin strateji müttəfiqliyinin təsdiqinə çevrilmişdir.

*Məhz İlham Əliyevin son dövrdə apardığı müdrik siyasət sayəsində Azərbaycan bir çox dövlətlərlə əlaqə və münasibətlərini nəinki sıxlaşdırmış, hətta strateji tərəfdaşlıq səviyyəsinə qaldırmışdır.*

İlham Əliyevin fəaliyyəti sayəsində bir çox dövlətlər:

* Özbəkistan;
* Qazaxıstan;
* Gürcüstan;
* Qırğızıstan;
* Pakistan;
* Türkmənistan;
* Rusiya;
* Çin və digərləri ilə iqtisadi əlaqələr daha da sıxlaşdırılmış, strateji əməkdaşlıq münasibətləri qurulmuşdur.

Bir sıra dost ölkələr isə Qarabağın və Şərqi Zəngəzurun bərpasına və dirçəldilməsinə şəxsi töhfələrini vermişlər.

Məsələn:

* Qazaxıstan Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzini;
* Özbəkistan Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbini;
* Qırğız Respublikası isə Ağdamın Xıdırlı kəndində Ayköl Manas adına tam orta məktəbini tikərək Azərbaycana ərməğan etmişlər.

*Dövlət başçılarının Qarabağa, xüsusən Şuşaya və Xankəndiyə dostluq səfərləri, orada keçirilən beynəlxalq tədbirlər, Şuşanın müxtəlif türk dövlətləri və təşkilatlarının mədəniyyət paytaxtı elan etmələri bu birliyin və dostluğun təcəssümüdür.*

**İlham Əliyevin təşəbbüsü ilə gerçəkləşən bir sıra layihələr:**

* Özbəkistan və Qazaxıstanla birlikdə "yaşıl enerji"nin inkişafı və ötürülməsi;
* Türkmənistan qazının Azərbaycan üzərindən Avropaya çıxarılması da yaxın gələcəyə ünvanlanmış dəyərli layihələrdir.
* Bu gün dünya uzun sürən müharibələr və qanlı toqquşmalar girdabında boğulur.
* Bu gün dünya yeni nizamın yaranmasının ağrı və çətinliklərini yaşayır.
* Bu gün dünya təbiətin sürprizləri ilə qarşılaşaraq böyük itkilər yaşayır.

Hələ də üfüqdə sülh və sabitlik görünmür.

**Azərbaycan Prezidenti İlham Əliyevin atdığı addımlar, yeni nəqliyyat dəhlizləri yaradaraq dövlətləri əməkdaşlığa və qarşılıqlı faydalara səsləməsi isə sülhdən xəbər verir.**

Ən doğru yol da elə budur!

*Çünki inkişaf da, firavanlıq da, insanların arzu və istəklərinin gerçəkləşdirilməsi də yalnız sülh şəraitində mövcuddur.*

Azərbaycanın son dövrlərdə gördüyü işlər bütün bunların təsdiqidir!

**Bəxtiyar SADIQOV**

# Avazada Xəzərin dayazlaşması müzakirə edilib

**BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Üçüncü Konfransı çərçivəsində Xəzəryanı dövlətlərin hökumət rəsmiləri səviyyəsində iclası keçirilib.**




Azərbaycan Respublikasının Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Xəzər dənizinin dayazlaşmasının mənfi təsirlərini azaltmaq üçün birgə fəaliyyətin əsas istiqamətləri müzakirə olunub.

İclasda çıxış edən Baş nazirin müavini Şahin Mustafayev Xəzəryanı dövlətlər arasında ticarət dövriyyəsinin dayanıqlı artım dinamikasını qeyd edərək, bunun həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əməkdaşlığın dərinləşməsi üçün möhkəm zəmin yaratdığını bildirib.

Baş nazirin müavini cari ilin fevralında Tehranda keçirilmiş III Xəzər İqtisadi Forumunun ticarət və qarşılıqlı investisiya həcmlərinin genişlənməsi, enerji və nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi baxımından əhəmiyyətli olduğunu qeyd edib.

Çıxışında ekoloji çağırışlara da toxunan Şahin Mustafayev su səviyyəsinin aşağı düşməsinin bütün regionda narahatlıq doğurduğunu, bu problemin hələ 2022-ci il Aşqabad Sammitində Azərbaycan Prezidenti tərəfindən qaldırıldığını və Bakıda beştərəfli ekspert qrupunun ilk toplantısının təşkilinə hazırlıqların davam etdiyini vurğulayıb.

Əlavə olaraq, tədbirdə Xəzər dənizinin ekosistemində baş verən dəyişikliklərin sosial-iqtisadi və ekoloji aspektləri geniş şəkildə müzakirə olunub. Su səviyyəsindəki dəyişikliklərin sahilyanı ərazilərdəki həyat şəraitinə və regional inkişaf proseslərinə mümkün təsirləri diqqət mərkəzində olub.

Baş nazirin müavini Şahin Mustafayev qeyd edib ki, səviyyə dəyişikliklərinin mənfi təsirlərinin minimuma endirilməsi üçün elmi-tədqiqat əməkdaşlığının genişləndirilməsi, balıqçılığın, gəmiçiliyin və biomüxtəlifliyin qorunması sahəsində birgə proqramların həyata keçirilməsi zəruridir.

İclas zamanı Xəzər dənizində baş verən dəyişikliklərin öyrənilməsi üçün ümumi standartlar və yanaşmalar formalaşdırmağa imkan verəcək çoxtərəfli qarşılıqlı fəaliyyət mexanizminin işə salınması təşəbbüsü irəli sürülüb.

# İran və Azərbaycan sərhəddə birgə layihələrin icrasının tezləşdirilməsini istəyirlər

**BMT-nin Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üzrə Üçüncü Konfransı çərçivəsində Türkmənistanın Avaza şəhərində Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayevlə İranın yol və şəhərsalma naziri Fərzanə Sadiq arasında keçirilən görüşdə iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq, xüsusilə də birgə sərhəd layihələrinin icrası müzakirə olunub.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, görüş zamanı hər iki tərəf Astara dəmir yolu yük terminalı və tikilməkdə olan sərhəd körpüləri də daxil olmaqla, mövcud layihələrin həyata keçirilməsinin sürətləndirilməsinin vacibliyini vurğulayıb.

Prezidentlər İlham Əliyevlə Məsud Pezeşkian arasında sıx təmasların iki ölkə arasında münasibətlərin dərinləşməsində xüsusi rol oynadığı qeyd edilib.

Tərəflər habelə yaxın vaxtlarda qarşılıqlı səfərlərlə bağlı razılığa gəliblər.

Görüşdə layihələrin irəliləməsi, qarşıda duran problemlərin həlli və əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Hərbi prokurorun hərbi qulluqçularla görüşü keçirilib





Azərbaycan Respublikasının baş prokurorunun müavini - hərbi prokuror ədliyyə polkovniki Bəhruz Əhmədov müdafiə nazirinin müavini-Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyevlə birlikdə dövlət sərhədlərində qulluq edən hərbi qulluqçularla görüşüb. Görüşlərdə Hərbi Prokurorluğun rəhbər vəzifəli şəxsləri və Müdafiə Nazirliyinin yüksəkrütbəli hərbi qulluqçuları iştirak ediblər.

Bu barədə Hərbi Prokurorluqdan məlumat verilib.

Bildirilib ki, müxtəlif hərbi hissələrdə birgə keçirilən tədbirlərdən öncə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirəsi birdəqiqəlik sükutla yad olunub.



Tədbirlərdə Dövlət himni səsləndirilib, Baş Prokurorluğun rəhbərliyinin təbriki şəxsi heyətə çatdırılıb.

Çıxış edənlər dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyi və xalqın əzmkarlığı ilə əldə olunan uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrin formalaşdırılmasından bəhs ediblər.

Daha sonra hərbi qulluqçuların qarşısında hüquqi maarifləndirici məzmunda çıxışlar olub, onları maraqlandıran suallar cavablandırılıb. Hərbçilərin məişət və xidmət şəraiti ilə bağlı məsələləri, həmçinin qayğı və problemləri dinlənilib.

Sonda xidmətdə fərqlənən hərbi qulluqçulara hədiyyələr təqdim edilib.

# *Ombudsman:* "Ermənistanın mina terroru davam etməkdədir"

**"İşğaldan azad edilmiş ərazilərimizdə işğal dövründə Ermənistan tərəfindən basdırılmış minalar, partlamamış hərbi sursatlar mülki əhalinin və hərbi qulluqçuların həyat və sağlamlığına qəsd etməkdə davam edir".**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyevanın beynəlxalq təşkilatlara çağırışında bildirilir.

Qeyd olunur ki, Kəlbəcər rayonu ərazisində ordumuzun beş hərbi qulluqçusu mina partlayışı nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

"Azərbaycan ərazisində kütləvi şəkildə basdırılmış, bu günədək dəqiq xəritələri təqdim olunmamış minalar hər gün günahsız insanların həyat və sağlamlıqlarına böyük təhdid olaraq qalmaqdadır. Basdırılmış minalar, həmçinin keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışına, bu ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərinə maneə yaradır, ətraf mühitə ciddi ziyan vurmaqla bölgədə ekoloji tarazlığın pozulmasına da səbəb olur.

İşğaldan azad edilmiş ərazilərimizdə basdırılmış minaların dəqiq xəritələri barədə məlumatların təqdim olunması ilə bağlı tərəfimizdən dəfələrlə beynəlxalq təşkilatlara ünvanlanan müraciətlərin qəbul edilməsinə baxmayaraq, Ermənistan tərəfi beynəlxalq humanitar hüququn normalarının tələblərini pozaraq bu məlumatları təqdim etməkdən boyun qaçırır.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) olaraq bir daha müvafiq beynəlxalq təşkilatları dəqiq mina xəritələrinin Azərbaycana təhvil verilməsi istiqamətində Ermənistana ciddi təsir göstərməyə, törədilən hərbi və ekoloji cinayətlərə, o cümlədən humanitar hüquq pozuntularına kəskin reaksiya verməyə çağırıram", - deyə ombudsman vurğulayıb.

# *Akademik Fikrət ƏLİYEV:* "Qərbi Azərbaycana qayıdış uzaqda deyil"

**Zaman keçdikcə tarix unudulmur - o, nəsillərin yaddaşında yaşayır, kimliyimizə çevrilir və gələcək üçün yol göstəricisi olur. Qərbi Azərbaycan isə bu tarixin ən dəyərli səhifələrindən biridir. Hər qarışı yaddaşımıza hopmuş bu yurda bağlılıq, sadəcə, duyğu deyil, həm də milli-mənəvi borcdur. Müasir çağırışlar fonunda bu bölgənin tarixinin elmi və strateji baxımdan araşdırılması, gələcək nəsillərə ötürülməsi daha vacibdir.**



Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü, Meğri rayon icmasının sədri, akademik Fikrət Əliyev anadan olduğu Nüvədi kəndinin əhalisinin deportasiyasının 34-cü ildönümü ərəfəsində AZƏRTAC-a müsahibəsində bu bölgənin tarixi-coğrafi xüsusiyyətləri və yaddaşın qorunması barədə fikirlərini bölüşüb. Müsahibəni təqdim edirik.

*- Meğri rayonunun, o cümlədən Nüvədi kəndinin Azərbaycan tarixindəki yeri, bu bölgənin etnik və coğrafi xüsusiyyətləri barədə məlumat verə bilərsinizmi? Qeyd edək ki, avqustun 8-i həm də Qərbi Azərbaycandan deportasiyanın son ünvanı olan Nüvədi kəndindən əhalinin çıxarılmasının - yəni deportasiyasının 34-cü ildönümüdür. Bu hadisə Azərbaycanın tarixi yaddaşında dərin iz buraxıb və bölgənin milli-mədəni kimliyinin qorunmasında önəmli yer tutur.*

- Meğri rayonunun adının mənası ilə bağlı fikirlər müxtəlifdir - əsaslı və əsassız. Məsələn, ermənilər iddia edirlər ki, Meğri sözündəki "meğ" "bal" mənasını verir. Bu, ağ yalandır. Çünki rayonun ermənilərə aidiyyəti yoxdur. Bu söz qədim zamanlarda həmin ərazidə yaşamış türksoylu Mığır tayfasının adından yaranıb. Qeyd edim ki, atam Əhmədəli Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" adlı kitabı var. Həmin kitabda xüsusi vurğulanır ki, Meğri əhalisi türk tayfalarından ibarətdir, o cümlədən də Mığır tayfasından. Təsəvvür edin, o boyda geniş ərazidə bir dənə də olsun erməni toponimi yoxdur, hamısı Azərbaycan mənşəlidir.

Nüvədi də tarixən azərbaycanlıların yaşadığı bir ərazi olub. Hətta İstanbulda mən tarixi sənədləri araşdırarkən şahidi olmuşam ki, Nüvədi ilk dəfə Osmanlı mənbələrində 1593-cü ildə Rəvan bəylərbəyliyinin (İrəvan əyaləti) Masırı nahiyəsində (inzibati bölgü vahidi) 25 təsərrüfatdan ibarət kənd kimi qeyd edilib.

İşğala qədər Nüvədi kəndinin ərazisi 270 kvadratkilometr olub. Bu kənd Meğri rayonunun ərazisinin təxminən 40 faizini əhatə edib. 1929-cu ilədək inzibati ərazi bölgüsü cəhətdən Cəbrayıl qəzasına tabe olub - Azərbaycan torpağı olub. Əvvəllər Naxçıvan - Ordubad ərazisi, sonra Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur qəzasının ərazisinə daxil edilib. 1979-cu ilin statistikasına görə, kəndin əhalisinin sayı 1700 nəfərə çatıb. Nüvədi camaatı hər zaman yüksək təhsil səviyyəsi ilə seçilib, bölgədə maarifçilik ənənəsinin də daşıyıcısı olub.

*- Deportasiya və etnik təzyiqlər necə? 1991-ci il deportasiyasının kökü sizcə haradan - nə vaxtdan başlayır? Bu çətinliklər sosial-iqtisadi həyata, demoqrafik vəziyyətə və milli-mədəni kimliyə nə dərəcədə təsir göstərib?*

- Kəndin taleyi, həqiqətən, çox qəribədir. 1905-1906-cı, 1918-ci illər qırğınları, repressiya, deportasiya ayrı-ayrı hadisələrdir. Amma 1929-cu ildə başqa bir faciə yaşanıb. Saydığım bu illər terrorların sistematik baş verdiyi dövrlərdir. Amma fərqli illərdə də bizə qarşı təzyiqlər həmişə olub. Məsələn, 1906-cı ildə qonşu kənddən ermənilər hücum edib, amma kəndimizin əhalisi müqavimət göstərərək təslim olmayıb. Şiddətli döyüş və mühasirə bir aya yaxın davam edib. Sursat və azuqə tükəndiyinə görə camaat kənddən çıxmağa məcbur olub. Təxminən üç il sonra - 1909-cu ildə viran olmuş kəndə qayıdıb onu bərpa edərək yenidən yaşamağa başlayıblar.

Bu qırğın və talan çox keçmədən - 1918-ci ildə də təkrarlanıb. Babam belə nəql edirdi: "1918-ci ildə ermənilər hücum etdilər, evləri yandırdılar, dağıtdılar. Biz üç gün döyüşdük, top-tüfəngin qarşısında camaatı qırğına vermədik, nəhayət, kənddən çıxmağa məcbur olduq. Bir də Nüvədiyə üç ildən sonra qayıtdıq. Evlərimizi, təsərrüfatlarımızı yenidən bərpa etdik. Amma ermənilər bizə qarşı müxtəlif təzyiqlərdən, təhdidlərdən əl çəkmədilər".

*- Bəs 1929-cu il? Siz bir qədər əvvəl bu tarixi xüsusilə vurğuladınız...*

- Ümummilli Liderimiz dəfələrlə bu barədə çıxış edib. SSRİ rəhbərliyi Naxçıvanla Azərbaycanın digər bölgələrini ayıran Meğri eksklavını genişləndirmək istəyirdi. Buna görə də Zəngəzur, o cümlədən Meğri və Nüvədi sovet dövründə ermənilərə verildi - Prezident İlham Əliyev də həmişə bu tarixi həqiqəti vurğulayır. Qeyd edim ki, o vaxt Meğrinin Naxçıvanla Azərbaycanın digər bölgələrini ayıran hissəsi yalnız 11 kilometr idi. Sonradan bu yola Ordubadın Kilit kəndinə məxsus torpaqların bir hissəsi, Aldərə və bir neçə başqa kəndin də əraziləri əlavə edilərək məsafə 46 kilometrə çatdırılıb.

1929-cu ildə ermənilər müraciət edərək həmin torpaqların, o cümlədən bizim kəndimizin onlara verilməsini tələb ediblər. Həmin vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Levon Mirzoyan olub. Müraciət qəbul edilib və bu ərazilər qeyri-qanuni olaraq ermənilərə verilib. 1969-cu il mayın 8-də - Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsinə iki ay qalmış Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bu məsələyə baxıb və Ali Sovetə tövsiyə olunub ki, o torpaqlar ermənilərə verilsin. Beləliklə, həmin torpaqların ermənilərə verilməsi rəsmiləşdirilib. Xatirimdədir, 1980-ci illərin sonunda nüvədililər Azərbaycan Ali Sovetindən tələb edirdilər ki, həmin qərar ləğv olunsun. Hətta Nüvədi ziyalıları müraciət edərək məsələni Azərbaycan Ali Sovetinin gündəliyinə çıxarmaq istədilər, lakin bu alınmadı.

*- Sonuncu deportasiya barədə nə deyə bilərsiniz? Siz özünüz bu hadisələrin canlı şahidi olmusunuz. Hadisələr necə başladı, necə davam etdi?*

- Qərbi Azərbaycanda azərbaycanlılara qarşı deportasiya siyasəti 1987-ci ildən başladı və 1988-ci ildə sürətləndi. Noyabr ayında isə yalnız Nüvədi camaatından başqa bütün azərbaycanlı əhali dədə-baba yurdlarından zorla didərgin salındı. 1989-cu ildən ermənilər diqqətini Nüvədiyə yönəltdilər və vəziyyət daha da gərginləşdi. Ancaq kənd camaatının müqaviməti sayəsində Nüvədi 1991-ci ilə qədər qorundu.

*- Deportasiyadan sonrakı proseslər hansı formada davam etdi? Hansı istiqamətlərdə çətinliklərlə üzləşdiniz?*

- Nüvədidən camaat çıxan gün mən Moskvaya getməyi qərara aldım və getdim. Qəbul otağına gələrək, Qorbaçovla görüşmək istədiyimi bildirdim. Görüş üçün vaxt təyin edildi. Getdim görüşə, dedilər ki, Qorbaçov axşam həbs olunub, Krımdadır. Həmin gecə Fövqəladə Hallar üzrə Dövlət Komitəsinin (QKÇP) rəhbəri, SSRİ-nin vitse-prezidenti Gennadi Yanayevin avqust hadisələri başlamışdı. Sonra Yanayevlə görüşmək istədim, mənə üç gün gözləməyimi bildirdilər. Üç gündən sonra yenə qəbula getdim. Dedilər ki, müdafiə nazirinə tapşırıq verilib. SSRİ ordusu Qafandan başlayaraq erməni terrorçuları tərk-silah edəcək, hər şey öz qaydasına düşəcək, mən də bu məsələdə onlara yardım edəcəm. Çox sevindim. Növbəti gün getdim, dedilər, qəbul olmayacaq, məni SSRİ Ali Sovetinin sədri Aleksandr Lukyanovun qəbuluna göndərdilər. Getdim Ali Sovetə, Lukyanov iclasda olduğu üçün məni köməkçisi Aleksandrov qəbul etdi, vəziyyəti danışdım. Mənə dedi ki, Nüvədi Ermənistanın ərazisidir, nəsə etmək mümkün deyil. Bu sözə etirazımı bildirdim, məni tutdular, həbs etmək istədilər. Beləliklə, heç nəyə nail olmaq alınmadı. Qayıtdım Bakıya.

Evlərindən qovulan Nüvədi camaatı Zəngilan rayonunun Vejnəli kəndinin yaxınlığında çadırlarda məskunlaşmışdı. Azərbaycanın müxtəlif ərazilərindən yardımlar gəlirdi, amma ölkə rəhbərliyi bu məsələyə laqeyd yanaşırdı. Ona görə vəziyyət çox ağırlaşanda Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri Ulu Öndər Heydər Əliyevə zəng etməli oldum. Ümummilli Lider dərhal dəstək göstərilməsi barədə tapşırıq verdi, nüvədililərə Naxçıvandan mütəmadi olaraq yardımlar göndərildi.

*- Son olaraq Qərbi Azərbaycana qayıdış haqqında fikirlərinizi bilmək istərdim.*

- Yaxşı bilirik ki, Azərbaycan Respublikası heç vaxt indiki qədər güclü olmayıb. Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi milli tariximizdə bənzəri olmayan bir hadisədir. İndi isə qarşımızda yeni bir vəzifə - Qərbi Azərbaycana qayıtmaq məsələsi dayanır. Bu gün o torpaqların 80 faizi boşdur. Evlərin daşlarını, qapı-pəncərələrini söküb aparmaqdan başqa heç nə edə bilməyiblər. Çünki orada yaşamaq istəmirlər, bilirlər ki, o kəndlər onların deyil. Amma bu gün cənab Prezident İlham Əliyev deyir: "Biz qərbi azərbaycanlıları topsuz-tüfəngsiz geri qaytaracağıq". Bu, bizim üçün çox böyük xoşbəxtlikdir. Mən də bir qərbi azərbaycanlı kimi deyirəm ki, biz Prezidentimizin qətiyyətinə inanırıq, əl-ələ verib oraya qayıtmaq məsələsini gündəmdə saxlamalıyıq. Düşünürəm ki, biz mütləq oraya qayıdacağıq. Mən qəti inanır və hiss edirəm ki, Qərbi Azərbaycana qayıdış uzaqda deyil. Bu baxımdan, gənclərimizin üzərinə böyük məsuliyyət düşür. Onlar kim olduqlarını bilməlidirlər, milli kimliklərini unutmamalıdırlar, tarixlərinə dərindən bələd olmalıdırlar.

## Sülh gündəliyində yeni mərhələ

# Donald Trampın təklifi ilə

## Ağ Evdə tarixi görüş olacaq

**Prezident İlham Əliyev ABŞ-yə səfər edəcək. ABŞ Prezidenti Donald Trampın dəvəti ilə reallaşan bu səfər zamanı İlham Əliyev Ermənistanın baş naziri Nikol Paşinyanla görüşəcək.**

Ağ Evdən "Bloomberg" agentliyinə göndərilən daxili planlaşdırma sənədində bu barədə açıq qeyd olunub. Bildirilir ki, Donald Tramp bu həftənin cümə günü Azərbaycan və Ermənistan liderləri ilə görüş keçirəcək. Sənədə əsasən, avqustun 8-də (cümə günü) Tramp Bakı vaxtilə saat 22:30-da Ermənistanın baş naziri ilə, 23:20-də isə Azərbaycan Prezidenti ilə ikitərəfli görüşlər keçirəcək. Ardınca isə Bakı vaxtilə saat 00:00-da hər iki liderin iştirakı ilə birgə bəyanat veriləcək.

Bu onu göstərir ki, Donald Tramp Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanmasında və Zəngəzur dəhlizinin açılmasında çox maraqlıdır. İkinci Qarabağ müharibəsinin başa çatmasından 5 ilə yaxın zaman keçsə də, tərəflər arasında sülh müqaviləsinin imzalanmamasının səbəbi bəllidir. Yəni sülh müqaviləsi ancaq Azərbaycan Prezidentinin tələbləri yerinə yetiriləcəyi halda imzalana bilər.

Azərbaycan-ABŞ tərəfdaşlığının 33 ildən artıq tarixi var. Bu illər ərzində ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmət və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıyıb, diplomatik münasibətlər isə 28 fevral 1992-ci ildə qurulub. Azərbaycanın ABŞ-də səfirliyi 1992-ci il martın 6-dan, ABŞ-nin Azərbaycanda səfirliyi isə həmin il martın 16-dan fəaliyyət göstərir. Bu illər ərzində Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında 90-a yaxın sənəd imzalanıb və genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılıb. 1997-ci ildən Azərbaycan Respublikasının Milli Məclisində Azərbaycan-ABŞ parlamentlərarası əlaqələr üzrə işçi qrupu fəaliyyət göstərir.

Hazırda iki ölkə arasında siyasi əlaqələr dinamik olaraq inkişaf edir. İki ölkənin liderləri arasında olan səmimi münasibətlər Azərbaycan-ABŞ əməkdaşlığında yeni səhifə açıb.

Məhz Donald Trampın birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlıq münasibətləri daha da möhkəmlənib. Bunu Prezident İlham Əliyevin seçkilərdə qələbə qazanması münasibətilə Donald Trampa açdığı telefon zamanı liderlərin danışığından eşitmişik. İlham Əliyev seçkilərdə inamlı qələbənin Amerika xalqının Donald Trampın yürütdüyü siyasi xəttə böyük dəstək və etimadının aşkar ifadəsi olduğunu vurğulayaraq qeyd etmişdi ki, Donald Trampın fəaliyyəti dünyada təhlükəsizliyin təmin olunmasında daha da önəmli rol oynayacaq. Birinci prezidentlik dövründə Azərbaycan ilə Birləşmiş Ştatlar arasında dostluq və əməkdaşlığın möhkəmlənməsinə Donald Trampın xüsusi diqqət ayırdığını deyən dövlətimizin başçısı ikitərəfli əlaqələrin irəli aparılması üçün birgə səylər göstəriləcəyinə ümidvarlığını bildirmişdi. Prezident Donald Tramp isə öz növbəsində səmimi təbriklərə görə İlham Əliyevə dərin təşəkkürünü bildirərək ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə birgə səylərlə çalışmağın vacibliyini vurğulamışdı.



Bir qədər də əvvələ baxsaq, Prezident İlham Əliyevin hələ İkinci Qarabağ müharibəsinin gedişində - 2020-ci ilin 25 oktyabrında ABŞ-nin "Fox News" televiziya kanalına müsahibəsində Donald Trampın Cənubi Qafqaz siyasətini yüksək dəyərləndirməsini görərik: "Donald Trampın münaqişənin həlli ilə bağlı gördüyü işlər beynəlxalq münasibətlərə tam uyğundur. Biz bununla bağlı onun mövqeyini, şəxsi fikirlərini tam dəstəkləyirik" fikirləri həmin dövrdəki gərgin diplomatik situasiyada Ağ Ev rəhbərinin tutduğu ədalətli mövqeyi isbatlayır. "Biz görürük ki, ABŞ-nin mövqeyi balanslaşdırılmışdır və bu, belə də olmalıdır. Çünki ABŞ vasitəçidir. ABŞ tərəf tutmur. Eləcə də digər həmsədrlər tərəf tutmamalıdırlar. Biz çox böyük erməni icmasının təkcə Amerikada deyil, həmçinin Fransa və Rusiyada daxili siyasətə təsirinin olduğunu, çoxlu lobbiçilik fəaliyyəti ilə məşğul olduğunu, indi Azərbaycan əleyhinə var gücü ilə fəaliyyət göstərdiyini və onların göstərə biləcəyi təzyiqin səviyyəsini başa düşürük. Lakin eyni zamanda Prezident Trampın açıq siyasəti burada - Azərbaycanda təkcə mənim tərəfimdən deyil, xalqımız tərəfindən də dəstəklənir", - deyə İlham Əliyev bildirmişdir.

Ötən il iyulun 21-də Şuşada keçirilən 2-ci Qlobal Media Forumunda dünyada geniş tüğyan edən dezinformasiya, böhtan və yalan informasiyalar bəlasından danışan Prezident İlham Əliyev bir daha amerikalı həmkarını xatırlatmışdır: "Prezident Tramp "Vaşinqton Post"u və "Nyu York Tayms"ı feyk-nyus, yəni yalan xəbər mənbəyi adlandırıb. Mən tamamilə onunla razıyam. Mən təkcə bu məsələdə deyil, onun bir çox bəyanatları ilə razıyam. Bu gün ABŞ Prezidenti məhz media tərəfindən hücumların qurbanıdır, ictimai rəyin manipulyasiyasının qurbanıdır".

Ardınca isə İlham Əliyev onun qarşıdakı seçkilərdə hansı namizədin qalib gəlməsini arzulaması barədə sualı belə cavablandırmışdı: "Çalışıram, əlimdən gələni edirəm ki, maksimum dərəcədə fikirlərimi səmimi ifadə edim. İstənilən auditoriya qarşısında, istər mətbuat qarşısında və yaxud da Azərbaycan ictimaiyyəti qarşısında keçirilən tədbirlərdə mən heç bir halda yanlış məlumat paylaşmıram. Lakin siyasi mədəniyyət anlayışı var və bu anlayış sizin sualınıza birbaşa cavab verməyə imkan yaratmır. Ancaq sizin sualınız başa düşürəm ki, tamamilə ritorikdir. Biz bir-birimizi onilliklərdir tanıyırıq və tamamilə əminəm, siz də yaxşı bilirsiniz ki, mən kimə üstünlük verərdim. Düşünürəm ki, Azərbaycanda mən bu məsələdə, bu mövqedə yeganə deyiləm". Əlbəttə ki, bu cümlələrdən İlham Əliyevin Donald Trampa dəstəyi məlum olmuşdu. Prezident İlham Əliyev eyni zamanda ABŞ-dəki seçki marafonunu dəyərləndirərək demişdi ki, Donald Trampın hələ də davam edən kampaniya zamanı səsləndirdiyi mühüm tezislərdən biri də onun vaxtında heç bir müharibənin olmayacağıdır: "Onun hakimiyyəti dövründə Amerika müharibələrə başlamadı, Vyetnam, Koreya, Yuqoslaviya, Əfqanıstan, Liviya, İraq, Suriya və necə deyərlər, onların davamı olmadı. Bax, bu müddət ərzində onların heç biri baş vermədi. Ancaq buna, yəqin ki, böyük hörmətlə yanaşmağa dəyər".

Bütün bunlar, eləcə də əlamətdar günlərdə göndərilən qarşılıqlı rəsmi məktublarda qeyd edilən səmimi fikirlər iki ölkənin liderlərinin bir-birilərinə olan münasibətini açıq şəkildə ortaya qoyur. Donald Tramp Azərbaycan Prezidentinin böyük liderlik rolunu qəbul edir, İlham Əliyevin islahatlar kursuna dəstəyini bildirir, ölkəmizin bütün region üçün meyar olduğunu söyləyir.

Ötən ay Xankəndidə keçirilən III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşdə İlham Əliyevin amerikalı həmkarı ilə bağlı səsləndirdiyi fikirlərin Donald Tramp tərəfindən özünün şəxsi "Truth" sosial şəbəkə səhifəsində paylaşması da deyilənlərin təsdiqidir. Qeyd edək ki, Prezident İlham Əliyev çıxışının həmin hissəsində Donald Trampın Azərbaycan xalqı ilə ortaq fundamental, o cümlədən ailə dəyərlərini paylaşdığı və buna görə də ABŞ-də onun prezident seçilməsini istədiyini bildirib. Həmçinin Trampın müharibə başlatmayan, əksinə, müharibələrə son qoymaq məqsədi güdən yeganə ABŞ Prezidenti olduğunu söyləyib. İlham Əliyev eyni zamanda daha böyük qlobal təhlükəsizlik məsələləri ilə məşğul olmasına baxmayaraq, Trampın Ermənistanla Azərbaycanın yekun saziş əldə etməsi istiqamətindəki niyyətinə görə ona minnətdarlığını ifadə edib.

Bu fikirlərdən heç bir ay keçməmiş Donald Tramp hər iki ölkənin liderini ABŞ-yə dəvət edərək onlarla görüş təyin etdi.

Beləliklə, İlham Əliyevin ABŞ-yə səfəri yalnız Azərbaycan-Amerika ikitərəfli münasibətləri baxımından deyil, həm də regional sabitliyin təminatı baxımından mühüm əhəmiyyət kəsb edir. Bu səfər eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunun artması və regionda balanslı xarici siyasət kursunun davam etdirilməsi baxımından mühüm mərhələ kimi qiymətləndirilməlidir.

İlham Əliyevin ABŞ-yə səfəri həm də Azərbaycanın beynəlxalq nüfuzunun gücləndirilməsi baxımından simvolik əhəmiyyət daşıyır. Bu, informasiya cəbhəsində əldə olunmuş diplomatik qələbədir və Azərbaycan dövlətinin milli maraqlarını qətiyyətlə qorumaq qabiliyyətinin daha bir təzahürüdür.

Əgər ABŞ-də tərəflər arasında hər hansısa bir sənəd imzalanarsa, hansısa razılıq əldə olunarsa, bu, həm regional sabitlik və dayanıqlı əməkdaşlıq üçün yeni fürsətlərin yaranmasını şərtləndirə bilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Dünyanın gözü Ağ Evdə, Makron isə Azərbaycandakı səfirini geri çağırır

## Nə var - nə var - Qarabağa səfər edib

**Fransanın Azərbaycandakı səfiri "məsləhətləşmələr" üçün geri çağırılıb. Sözügedən ölkənin Azərbaycandakı səfirliyinin Mətbuat xidmətinin bu haqda verdiyi açıqlamasında qeyd olunur: "Fransanın Azərbaycandakı səfiri Ann Buayonun yaxın müddətdə səlahiyyət müddəti başa çatacaq. Onun yerinə təklif edilən şəxsin kimliyi ilə əlaqədar məlumat Azərbaycan hökumətinə təqdim olunub".**

Xatırladaq ki, Ann Buayon 2023-cü il yanvarın 26-da etimadnaməsini Azərbaycan Prezidentinə təqdim edib. Onun ölkəmizdə fəaliyyət göstərdiyi bu müddətdə Azərbaycan hökuməti diplomatik korpusun, xarici şirkətlərin nümayəndələrinin işğaldan azad olunmuş ərazilərə səfərlərini təşkil etsə də, Fransa səfirliyi nəinki həmin ziyarətlərdə iştirak etmiş, hətta cidd-cəhdlə bu səfərlərə mane olmağa çalışmışdır. Amma 2025-ci ilin iyununda səfir Ann Buayon, necə deyərlər, şeytanın ayağını qıraraq Şuşaya səfər etmişdir. Üstəlik, səfər zamanı açıqlama da vermişdir: "Şuşa Azərbaycan mədəniyyətini başa düşmək, anlamağa imkan verən şəhərdir. Həqiqətən də, burada olmaqdan böyük sevinc hissi keçirirəm. Bilirəm ki, Şuşa Azərbaycan üçün xüsusi yer tutur, çünki bu şəhər mədəniyyət və incəsənətin rəmzidir. Bundan əlavə, Şuşa dünyaya bir çox məşhur insanlar bəxş edib". Buayon həmçinin qeyd etmişdir ki, Azərbaycanın Qarabağ regionunda aparılan tikinti-bərpa işlərinin gedişinə heyran qalıb.

Birmənalı olaraq qeyd edə bilərik ki, Fransa Ermənistan-Azərbaycan münaqişəsinin ideya müəlliflərindən biridir. Bu ölkə istər problemin həllində vasitəçilik məqsədilə yaradılmış ATƏT-in Minsk qrupuna həmsədrlik etdiyi zamanda, istərsə də 2020-ci ildə Azərbaycan öz torpaqlarını hərbi yolla azad etdikdən sonra iki ölkə arasında sülh yaratmaqdan çox sülhə mane olan, münaqişə yaradan tərəf kimi fəaliyyət göstərib. 44 günlük Vətən müharibəsi dövründə Fransa parlamentinin keçmiş "Dağlıq Qarabağ"ın müstəqilliyinin tanınması barədə qətnamə qəbul etməsi yəqin ki, çoxlarının yadındadır. Həm də o yadındadır ki, rəsmi Paris Ermənistan üzərindən regionda möhkəmlənmək üçün əl altında saxladığı beynəlxalq və regional təşkilatlar vasitəsilə Azərbaycana davamlı təzyiqlər göstərməyə cəhd edirdi. Bununla da kifayətlənməyib iki ölkə arasında münaqişəni qızışdırmaq üçün məğlub olmuş ölkəni silahlandırmaq yolunu da tutmuşdu. Amma bu zaman nəzərdən qaçırırdı ki, Azərbaycanın dövlət maraqlarını və mövqeyini nəzərə almadan Cənubi Qafqazda möhkəmlənmək faktiki olaraq mümkün deyil. Mümkün olmayan həm də Azərbaycanla güc dilində danışmaqla nəyə isə nail olmaqdır. Hətta səfiri geri çağırmaqla belə...

Bu arada xəbər yayıldı ki, səfir Ann Buayonun Şuşaya səfəri ləğv edilmiş qondarma "artsax"ın Fransadakı "daimi nümayəndəsi" Hovannis Gevorgyanın da "qəzəb"inə səbəb olub. Separatçıların nümayəndəsi Prezident Emmanuel Makrona məktub yazaraq "tədbir" görülməsini xahiş edib. Ancaq başa düşmək çətindir ki, bütün dünyanın gözünün Ağ Evə dikildiyi, Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanmasının indiki qədər yaxın və real olduğu bir vaxtda Fransa nə adla səfiri ilə bağlı "tədbir" görəcək.



Əvəzində onu başa düşürük ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyanın iyulun 10-da Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabidə vasitəçisiz keçirilən görüşü Cənubi Qafqaza göz dikən Fransa üçün arzuedilməz idi. Başqa sözlə, görüşdən sonra iki dövlət arasında imzalanacaq sülh müqaviləsinin şərtlərinin razılaşdırıldığı və Zəngəzur dəhlizinə Amerkanın özəl şirkətinin nəzarət edəcəyi haqqında mətbuatda gedən məlumatlar adıçəkilən dəhlizə nəzarəti ələ keçirmək istəyən və Cənubi Qafqaz regionunda Ermənistan vasitəsilə möhkəmlənməyə can atan Fransa üçün "sürpriz" olmuşdur.

Aydın məsələdir ki, Fransanı düşündürən öz qlobal geosiyasi marağıdır. Amma vaxtilə dünyanın bir çox ölkələrində kütləvi surətdə əhalini məhv edən, insan hüquqlarına məhəl qoymayan, XXI əsrdə müstəmləkəçilik siyasətindən əl çəkə bilməyən bir dövlətin özünü "artsaxlı"ların müdafiəçisi kimi göstərməsi "tülkünün həccə getməsi" qədər gülünc və ikrahedici görünür.

Elə ona görə də Cənubi Qafqazda geosiyasi maraqları iflasa uğrayan rəsmi Paris ona-buna söz atmaqla son uğursuz çabalarını edir. Xülasə, görünən odur ki, N.Paşinyan hökuməti ilə istədiyinə nail ola bilməyən Paris əli hər yerdən üzüldüyü üçün üzünü yenidən separatçılara və revanşistlərə tərəf çevirib. Təsadüfi deyil ki, bu günlər Fransa Milli Assambleyasında ermənipərəst və anti-Azərbaycan ünsürlər tərəfindən yeni qətnamə layihəsi irəli sürülüb. Qətnamə layihəsinin müəlliflərinin kimliyi artıq həmin layihənin mahiyyətini açıq şəkildə ortaya qoyur. Regionumuzda baş verən proseslərə növbəti müdaxilə cəhdi olan bu layihədə adəti üzrə reallıqlar təhrif olunur, Azərbaycanın ərazi bütövlüyünə açıq hörmətsizlik nümayiş etdirilir və ölkəmiz əleyhinə yalan ittihamlar yer alır.

Belə görünür ki, Azərbaycanla Ermənistan arasında, xüsusən Əbu-Dabi görüşündən sonra və Ağ Evdə Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin ABŞ liderinin iştirakı ilə gözlənilən görüşü ərəfəsində Cənubi Qafqazda sülhü istəməyən məlum qüvvələr fəallaşıblar. Onlar vəziyyəti yenidən gərginləşdirmək və sülh gündəliyinə xələl gətirmək istəyirlər.

İndiyə kimi sülh danışıqlarında "vasitəçi"lik etmək üçün az qala dəridən-qabıqdan çıxan Makronun danışıqlar prosesindən tamamilə kənar qalması, bağlı qapılar arxasında iki ölkə arasında nələrin müzakirə edildiyini yalnız mətbuatdan xəbər tutması bu ölkənin Cənubi Qafqaz regionunda siyasi iflası deməkdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# *Ekspert:* "Tramp yaxşı anlayır ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayır"

**Sülh, əslində, əvvəldən ABŞ Prezidenti Donald Trampın konsepsiyasının əsas tərkib hissələrindən biri olub.**



Bu fikri AZƏRTAC-a açıqlamasında Vaşinqtonda yerləşən "Hudson" İnstitutunun aparıcı eksperti Mayk Doran səsləndirib.

O bildirib ki, Azərbaycan öz torpaqlarını ABŞ Prezidenti Donald Trampın birinci müddətində işğaldan azad edib. Mayk Doranın sözlərinə görə, Prezident Tramp artıq əvvəldən anlayıb ki, Azərbaycanla daha yaxın münasibətlər ABŞ-nin maraqlarına tam uyğundur: "Düşünürəm ki, Prezident Tramp həm ABŞ-nin, həm də Azərbaycanın maraqlarını düzgün dəyərləndirə bildi. Bu, olduqca təqdirəlayiqdir", - deyə Mayk Doran qeyd edib.

Ekspert bildirib ki, Azərbaycan Prezidenti Xankəndidə keçirilən Qlobal Media Forumunda ABŞ Prezidenti Donald Trampın sülhə dair mövqeyini xüsusi vurğulayıb. M.Doranın sözlərinə görə, Tramp yaxşı anlayır ki, Azərbaycan həm Mərkəzi Asiyaya açılan strateji qapıdır, həm də Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayır.

"Düşünürəm ki, bu, həqiqətən də yeni bir dövrün başlanğıcıdır. Artıq bütün xəritə dəyişir, bütün kartlar yenidən paylanıb. Biz sülh və firavanlıq erasına qədəm qoymuşuq. Tarix boyu sülhə və rifaha qarşı çıxanlar həmişə zəif olublar. Mən elə bir dövrün başlanmasını səbirsizliklə gözləyirəm ki, orada hər kəs özünü daha təhlükəsiz hiss etsin və daha da rifah içində yaşasın", - deyə ekspert vurğulayıb.

# Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası ölkəmiz əleyhinə aparılan informasiya kampaniyasına dair açıqlama yayıb

**Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası qonşu dövlətlərdən birinin ərazisindən ölkəmiz əleyhinə aparılan qeyri-dost fəaliyyətlərin sosial media və sosial şəbəkə platforması olan "Feysbuk" vasitəsilə hələ də davam etdiyini bildirir.**

Komissiyadan AZƏRTAC-a verilən məlumata görə, bir sıra səhifələr ("Echo of Baku", "Azeri Horizon", "Xəbər24", "Merry you", "Azerbaijan Pulse", "Az insight" və s.) vasitəsilə adıçəkilən platforma üzərindən Azərbaycan Respublikasının informasiya məkanına hədəfli müdaxilə cəhdləri edilərək ölkəmizdə ictimai fikri çaşdırmağa, dövlətin apardığı uğurlu daxili və xarici siyasətə kölgə salmağa çalışılır.

Geosiyasi manipulyasiya xarakterli məlumatlar Azərbaycan dilində "Feysbuk"da paylaşıldıqdan sonra istifadəçilərdən "Telegra.ph" kimi platformalara keçid etmələri istənilir ki, bu da öz növbəsində bir sıra istifadəçi məlumatlarının (IP ünvan, istifadə olunan cihaz və s.) ələ keçirilməsinə səbəb ola bilər.

Vətəndaşlarımızın nəzərinə çatdırırıq ki, bu cür informasiya əməliyyatlarına qarşı müvafiq dövlət qurumları ilə əlaqələndirilmiş şəkildə daim lazımi tədbirlər görülür. Eyni zamanda qeyd etməliyik ki, "Meta" şirkətinə edilən müraciətlər nəticəsində Azərbaycana qarşı fəaliyyət göstərən həmin səhifələrin bağlanmasına nail olunmuşdur.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya vətəndaşlarımızı diqqətli olmağa, bu cür məlumatlara inanmamağa çağırır, ölkəmizə qarşı istifadə edilən hibrid təhdid metodları və alətləri ilə bağlı müntəzəm olaraq ictimaiyyəti məlumatlandırır.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Moskva Bakı ilə münasibətlərə zərbə vurur

### Rusiya Azərbaycanla informasiya müharibəsi aparır

**Rusiyanın Azərbaycana qarşı başlatdığı informasiya müharibəsi gün keçdikcə daha da şiddətlənir. Bu ölkənin dövlət xəbər agentliyi TASS-dan, əsas təbliğat ruporu olan "Moskovskiy komsomolets" qəzetindən sonra dövlət televiziyası da anti-Azərbaycan kampaniyasına aktiv şəkildə qoşulub. Bu günlərdə Rusiya dövlət televiziyasında Azərbaycana qarşı növbəti təxribat xarakterli materiallar yayımlanıb. Belə ki, hazırlanan materiallarda Ermənistan hökuməti Qarabağdan köçən erməniəsilli şəxslərə yardım etməməkdə ittiham olunub. Guya onlar məcburi şəkildə Qarabağdan çıxarılıblar. Həmçinin beynəlxalq hüquqa zidd olaraq, dövlət televiziyasında uydurma "Artsax" sözündən istifadə olunub.**



Rusiyanın ölkəmizin suverenliyini və ərazi bütövlyünü açıq şəkildə hədəf alan bu cür qərəzli fəaliyyəti isə heç şübhəsiz iki ölkənin münasibətlərinə birbaşa zərbə vurur.

Hansı ki, Azərbaycan mehriban qonşuluq prinsiplərini hər zaman ön planda tutur və şimal qonşusu Rusiya ilə də əlaqələrinin yaxşı olmasına çalışır. Ancaq qarşı tərəfin sərgilədiyi aqressiv və imperializm meyillərini özündə ehtiva edən siyasət nəticəsində hazırda Bakı ilə Moskva arasındakı münasibətləri "buz kəsib", desək, yanılmarıq.

#### Riyakarlıq, qərəzli kampaniya

2023-cü ildə Qarabağda keçirilən antiterror tədbirləri sayəsində torpaqlarımızda separatizmə son qoyuldu, suverenliyimiz təmin olundu, konstitusiyamız bütün ərazilərimizdə hüquqi qüvvəyə mindi. Bu sayədə Rusiya sülhməramlı kontingentinin ərazilərimizdə fəaliyyətinə heç bir lüzum qalmadı. Qeyd edək ki, Rusiya sülhməramlılarının ərazilərimizdən çıxarılması Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində baş verib. 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatında sülhməramlıların 2025-ci ilə qədər müvəqqəti olaraq yerləşdirilməsi maddəsinin öz əksini tapması və burada "müvəqqəti" şərtinin qoyulması da Prezident İlham Əliyevin israrı sayəsində mümkün olmuşdu. Dövlətimizin rəhbərinin qətiyyətli siyasətinin təzahürü kimi, 2024-cü ildə bu proses məntiqi sonluğuna çatdırıldı. Onu da vurğulayaq ki, adıçəkilən hərbi kontingent ərazilərimizdə qanunsuz fəaliyyəti ilə diqqət çəkirdi. Xankəndidə rəssam İvan Ayvazovskinin büstünün qeyri-qanuni şəkildə quraşdırılması da bu qanunsuzluqdan biri idi. Hansı ki, haqlı olaraq Azərbaycan tərəfindən demontaj olunan bu büst ətrafında Rusiya süni ajiotaj yaradaraq müxtəlif platformalarda ölkəmizə qarşı qərəz kampaniyası aparır.

İvan Ayvazovskinin büstünün sökülməsi məsələsini şərh edən Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoy Azərbaycan tərəfinin bu addımının dərin təəssüflə qarşılandığını, bunun Rusiyaya qarşı xoşagəlməz və qeyri-dost addım kimi qiymətləndirildiyini bildirib. O, Azərbaycan tərəfini "ehtiyatlılıq nümayiş etdirməyə", "abidələrlə müharibə"yə, rus mədəniyyətinin "ləğv edilməsi" tədbirlərinə son qoymağa çağırış edib. Bununla yanaşı, Rusiyanın dövlət xəbər agentliyi olan TASS məsələ ilə bağlı dərc edilmiş "informasiya"da Azərbaycanın Xankəndi şəhərini "Stepanakert" adlandırıb. Jurnalistikanın prinsiplərini kobud şəkildə pozan agentlik təxribat xarakterli səhvini yalnız Azərbaycan Xarici İşlər Nazirliyinin sərt tələbindən sonra, o da iki cəhddən sonra düzəldib. Belə ki, əvvəlcə məqalənin sərlövhəsindəki "Stepanakert" sözü "dağlıq Qarabağ"la dəyişdirilib, sonda isə öz hüquqi adı ilə - Xankəndi ilə əvəzlənib.

Rusiya Azərbaycana qarşı növbəti media hücumunu "Moskovskiy komsomolets" qəzeti üzərindən etdi. Adıçəkilən nəşrdə yayımlanan qərəzli məqalədə hüquqi ərazilərimizdə sökülmüş qanunsuz heykəl bəhanə gətirilərək Azərbaycan nasist Almaniyası ilə müqayisə edildi. Halbuki Azərbaycan o ölkədir ki, alman nasizminin məğlubiyyətə uğradılmasına misilsiz töhfələr verib. Eyni zamanda erməni nasizmi ilə qəhrəmanlıqla mübarizə aparıb. Bu mənada Rusiyanın Azərbaycanı nasiszmdə ittiham etməsi riyakarlıqdır.

#### Məqsədyönlü təxribat

İnformasiya savaşının növbəti dalğasını bu günlərdə Rusiya dövlət televiziyasında müşahidə etdik. Burada yayımlanan materiallarda Qarabağdan köçən erməniəsilli şəxslərin guya məcburi şəkildə bu ərazidən çıxarılmalarından bəhs edilib.

Onsuz da biz qərəzli xarici dairələrin Qarabağdan könüllü köçən erməniəsilli sakinlərdən Azərbaycana qarşı vaxtaşırı təzyiq aləti kimi istifadə edilməsinə alışmışıq. Bu dəfə həmin kartla Rusiya oynamağa başlayıb. Halbuki, Qarabağda yaşayan erməniəsilli sakinlərin yaşamı, həyatı üçün heç bir risk olmadığı halda onlar öz xoşları ilə kütləvi şəkildə Ermənistana köç etməyi seçdilər. Gerçəklik isə budur ki, Ermənistan tərəfindən bir milyondan çox azərbaycanlının fundamental hüquqları pozulub. Təcavüzkar ölkənin apardığı etnik təmizləmə siyasəti nəticəsində təkcə 1980-ci illərin sonlarında üç yüz min azərbaycanlı tarixi yurdundan qovulub. Bu günün özündə də Qərbi azərbaycanlıların qayıdış hüququ təmin olunmayıb. Eyni zamanda Ermənistanın Birinci Qarabağ müharibəsi zamanı həyata keçirdiyi işğalçı müharibə yüz minlərlə azərbaycanlını məcburi köçkünə çevirib. Bu faktların Rusiyaya gün kimi aydın olması da bir ayrı gerçəklikdir. Ancaq şəxsi ambisiyalarına görə rəsmi Moskva azərbaycanlıların pozulmuş hüquqlarından danışmağı lazım bilmir.

Rusiya dövlət televiziyasında uydurma "Artsax" sözündən istifadə olunması ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün şübhə altına alınması deməkdir.

Beynəlxalq hüququn normalarına əsasən, Qarabağ Azərbaycanın tərkib hissəsi, suveren ərazisidir. İndi qondarma "Artsax" qismində terror yuvasının adının hallandırılması ölkəmizə qarşı məqsədyönlü təxribatdan başqa bir şey deyil.

Təbii ki, şimal qonşumuz Rusiyanın Azərbaycanı sistemli şəkildə hədəfə almasının, media vasitəsilə hücumlara məruz qoymasının altında bir çox mətləblər yatır. Bunlardan birincisi ölkəmizin müstəqil və qətiyyətli siyasət yürütməsi, yerləşdiyi bölgənin üçüncü qüvvələrin poliqonuna çevrilməsinə imkan verməməsidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Rusiyanın irqçi və şovinist siyasəti

**"Son vaxtlar qonşu Rusiyada Azərbaycana qarşı kampaniyanın başlanması təəssüf doğurur. Bu kampaniyanın bir istiqamətini guya ölkəmizdə digər mədəniyyətlərə dözümsüz münasibət bəslənilməsi ilə bağlı aparılan sifarişli təbliğat təşkil edir".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Pərvin Kərimzadə deyib. Deputat bildirib ki, Rusiyada ölkəmizə qarşı aparılan qərəzli kampaniyada dövlət nəzarətində olan mətbuat, yüksəksəviyyəli rəsmilər, parlament təmsilçiləri iştirak edirlər: "Bu günlərdə qeyd olunan qərəzli kampaniyanın tərkib hissəsi olaraq Rusiyanın rəsmi TASS informasiya agenliyinin "Stepanakertdə Ayvazovskinin abidəsi söküldü" sərlövhəli xəbər yayması idi. Eyni zamanda Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Şvıdkoy Ayvazovskinin büstünün sökülməsi məsələsinə dair qeyri-obyektiv açıqlama verdi. Ermənipərəst deputat Konstantin Zatulin isə erməniəsilli rəssam İvan Ayvazovskinin heykəlinin sökülməsini "barbarlıq", "dini və tarixi abidələrin dağıdılması" və sairə adlarla təqdim etdi. Əlbəttə ki, bütün bunlar yalan və böhtandan başqa bir şey deyil".

P.Kərimzadə xatırladıb ki, Azərbaycan tərəfinin rəsmi iradlarından sonra TASS agentliyi yazının sərlövhəsində dəyişikliklər edərək əvvəlcə "Spenakert" sözünü "Dağlıq Qarabağ" ifadəsi ilə əvəzləyib. Sonra isə "Qarabağ" sözü işlədib. TASS-ın rəhbər şəxslərindən biri Azərbaycanın dostu olan Mixail Qusmanın vəzifəsindən azad edilməsi də təəssüf doğurur. Bu kimi hallar Rusiyada Azərbaycanofobiyanın artmasını göstəriir.

Deputatın sözlərinə görə, Rusiyanın bəzi parlament üzvlərinin, ekspertlərinin Azərbaycanı nasizmdə ittiham etməsi qəbulolunmazdır. Dövlət Dumasının Təhsil komitəsinin üzvü Anatoli Vassermanın "VFokuse Mail" saytına açıqlaması isə açıq-aşkar təhdiddən ibarətdir: "Dövlət Dumasının üzvü iddia edib ki, Azərbaycan guya yaxın onillikdə qaçılmaz olaraq Rusiyanın tərkibinə daxil olacaq. O, iddia edib ki, məhz Rusiyanın sayəsində Azərbaycan tamhüquqlu dövlətə çevrilib. Guya tarixən Azərbaycan İran və Türkiyənin istəyi ilə bir-biri ilə ziddiyyət təşkil edən çoxlu kiçik və xırda bəyliklərdən ibarət olub. Əlbəttə, rusiyalı deputatın bu sözləri cəfəngiyyatdan başqa bir şey deyil", - deyə o əlavə edib.

Pərvin Kərimzadə vurğulayıb ki, bu, Azərbaycana qarşı irqçi və şovinist yanaşmanın bariz nümunəsidir. Rusiya siyasi dairələrində azərbaycanlılara qarşı qərəzli mövqe illərdir açıq şəkildə hiss olunur. Rusiya Dövlət Dumasının bir sıra deputatları dəfələrlə Azərbaycana qarşı belə böhtan və hədə dolu ifadələr işlədiblər. Bu cür ritorika yalnız ksenofobiyanı körükləmir, eyni zamanda konkret təhdid hallarına zəmin yaradır. Bu baxımdan, Dumanın üzvü Anatoli Vassermanın və başqalarının hədə-qorxu ritorikası ilə danışmaları yolverilməzdir. "Azərbaycan müstəqil və güclü dövlətdir. Heç bir qüvvə bizimlə təhdid dili ilə danışa bilməz. Dövlətimizin hər bir məsələdə mövqeyi beynəlxalq hüquqa əsaslanır. Ona görə də Rusiyanın siyasi dairələri, media qurumları tərəfindən ölkəmizə qarşı kampaniyaya son qoyulmalıdır", - deyə deputat qeyd edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Mina təhlükəsi davam edir

### Bu, ermənilərin insanlıq əleyhinə qanlı əməllərinin təzahürüdür

**Müharibələr həmişə insanlara böyük fəlakət, dərd və bəla gətirib. Ürəklərdə, qəlblərdə sağalmaz yaralar açıb.**



Mərmilər, raketlər bir anın içində binaları yerlə yeksan edir, şəhərləri, kəndləri viran qoyur, təkcə insanların deyil, təbiətdəki bütün canlıların həyatına son qoyur. Döyüşlərin şiddətindən bir-birindən gözəl şəhərlər qısa müddət ərzində cəhənnəmə dönür, yüz illərin xarabalığına çevrilir. İnsanlar uzun illər müharibənin törətdiyi bəlaların, ağrı-acıların əzablarını yaşamalı olurlar. Günlərin birində başlayan müharibələr elə günlərin birində də sona çatır. Mina təhlükəsi isə uzun illər çəkir. Minalar pusquda dayanmış düşmən kimi, hər fürsətdə can almaqda davam edir. Minalar canlı döyüşçüdən də qorxuludur. Çünki o gözə görünmür, varlığını qəflətən partlayıb can alanda bildirir. Onda da onu zərərsizləşdirmək, qəlpələrindən qaçmaq mümkün olmur.

Vətən müharibəsi Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında Zəfərlə başa çatdıqdan sonra qarşıda dayanan ən vacib vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi oldu. Bu mühüm vəzifəni yerinə yetirmək üçün Azərbaycan işğaldan azad olunmuş ərazilərdə ermənilərin basdırdığı minaların xəritələrini Ermənistandan tələb etdi. Rəsmi İrəvan isə əvvəlcə bu cür xəritələrin mövcud olmadığını bildirdi. Amma çox təkiddən sonra fikrini dəyişib xəritələrin bir hissəsini verdi. Amma təəssüflər ki, verilən bu xəritələrin 25 faizi dəqiq oldu. Erməni riyakarlığı, erməni hiyləgərliyi bu məsələdə də özünü göstərdi.

Artıq xeyli müddətdir işğaldan azad olunmuş ərazilərimizə Böyük qayıdış başlayıb. Nə qədər çətin olsa da, ərazilər minalardan və digər partlamamış hərbi sursatlardan təmizlənir, doğma ocaqlarına qayıdacaq insanların təhlükəsizliyi yüksək səviyyədə təmin olunur. Qəbul edilmiş "Böyük Qayıdış" dövlət proqramına əsasən, 2026-cı ilə qədər 140 min nəfərin Qarabağa və Şərqi Zəngəzura köçürülməsi nəzərdə tutulur. Bu gün həmin ərazilərdə genişmiqyaslı layihələr icra olunur. Bir sıra magistral avtomobil yolları, elektrik xətləri, su xətləri çəkilir, dəmir yolları salınır, infrastruktur qurulur.

İkinci Qarabağ müharibəsi Zəfərlə başa çatsa da, Azərbaycan mina terrorundan əziyyət çəkir. İnsanların təhlükəsizliyinin təmin olunması məqsədilə bu dəhşətli, ölümsaçan bəla ilə təkbaşına mübarizə aparır. Azad edilmiş ərazilərdə baş verən və insan itkisi ilə nəticələnən mina partlayışları bir daha göstərir ki, ermənilər ərazilərimizi kütləvi şəkildə minalarla çirkləndiriblər. Müharibənin başa çatmasından beş ilə yaxın vaxt keçməsinə baxmayaraq, hələ də işğaldan azad olunmuş ərazilərdə partlayış səsləri eşidilir, insanlar tələf olur, ağır xəsarətlər alırlar. Elə bu günlərdə hərbçilərimizin maşınının Kəlbəcər rayonunun Vəng kəndində minaya düşməsi və xəsarət alması xəbəri hamımızı sarsıtdı. Bütün bunlar onu göstərir ki, müharibə bitsə də, ermənilərin basdırdığı minalar dəhşət saçmaqda davam edir.

Mütəxəssislərin ilkin qiymətləndirmələrinə görə, ermənilər işğal dövründə torpaqlarımıza 1,5 milyondan artıq mina basdırıblar. 44 günlük Vətən müharibəsi başa çatandan indiyə qədər 400 nəfərə yaxın vətəndaşımız bu minaların qurbanı olub. Minaya düşən vətəndaşlarımız hadisə zamanı ya həyatlarını itiriblər, ya da ağır bədən xəsarətləri alıblar. Ümumiyyətlə isə Ermənistanın Azərbaycanın ərazilərinə qarşı hərbi təcavüzünün başladığı vaxtdan indiyədək 3500-ə yaxın vətəndaşımız minalardan zərər çəkib. Ürək ağrıdan odur ki, onların arasında uşaqlar da var. Təəssüflər olsun ki, hələ də işğaldan azad olunmuş ərazilərimizdə mina təhlükəsi qalmaqdadır.

Münaqişə bitdikdən sonra da riyakarlığından, qan tökmək niyyətindən əl götürməyən Ermənistan Laçın yolundan yararlanaraq Azərbaycan ərazilərinə minalar döşəməyə davam edib. Ərazilərdə təmizləmə işləri aparılarkən 2021-ci il Ermənistan istehsalı olan piyadalar əleyhinə minlərlə mina aşkarlanıb. Bu faktlar bir daha sübut edir ki, 44 günlük Vətən müharibəsi başa çatandan və 10 noyabr 2020-ci il Bəyanaməsi imzalanandan sonra da Ermənistan üzərinə götürdüyü öhdəliklərə zidd olaraq, Laçın yolundan çirkli məqsədlər üçün istifadə edib. 2022-ci ildə Laçın və Kəlbəcər rayonlarının ərazilərində təmizləmə işləri aparılarkən 2021-ci il Ermənistan istehsalı olan 2700-dən çox piyada əleyhinə mina aşkarlanıb. Aşkarlanan minalar bir daha ermənilərin çirkin əməllərini bütün dünyaya göstərir.

Öz təsdiqini tapmış bu faktlar ermənilərin insanlıq əleyhinə olan qanlı əməllərinin sonu deyil. 2023-cü ilin sentyabr ayında uğurla həyata keçirilən antiterror tədbirlərindən sonra, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində 500 mindən artıq mina basdırıldığı məlum olub. Bütün bu faktlar dönə-dönə təsdiq edir ki, Ermənistan terrorçu dövlət olub. Ermənistanın mina xəritələrini verməməkdə əsas mədsəd və amalı keçmiş köçkünlərin doğma ocaqlarına qayıtmağına müəyyən çətinliklər yaratmaq, bacardığı, gücü çatdığı qədər bu prosesi ləngitmək və əngəllər törətməkdir. Qəsbkarlar başqa niyyət və məqsədlərinə çatmadıqları kimi, bu istəklərinə də çatmayacaqlar. Düşmən nə edir etsin, insanların doğma ocaqlarına qayıdışına əngəl törədə bilməyəcək. Getdikcə dünyada iqtisadi və siyasi gücü artan, beynəlxalq aləmdə söz sahibinə çevrilən Azərbaycan qarşısına qoyduğu hədəflərə yüksək səviyyədə nail olacaq. Qısa müddət ərzində işğaldan azad olunmuş ərazilər minalardan və partlamamış hərbi sursatlardan da təmizlənəcək, keçmiş köçkünlər doğma ocaqlarına qayıdacaqlar.

Qarabağ və Şərqi Zəngəzur ərazilərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi işinin daha da sürətləndirilməsi məqsədilə bu gün innovasiyalardan, texnologiyalardan, dronlardan və süni intellektin imkanlarından geniş istifadə olunur. İşğaldan azad edilmiş ərazilərdə minaların təmizlənməsi işinə yerli istehsal olan texnikalar da cəlb edilir. Bütün bunlar çox müsbət nəticələr verməkdədir. Bir sözlə, ərazilərimizin minalardan təmizlənməsi işləri sürətlə davam edir. "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda ərazilərin minalardan, partlamamış hərbi sursatlardan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi işlərinin 2026-cı ilə qədər davam etdirilməsi planlaşdırılır. Dövlət Proqramında nəzərdə tutulduğu kimi, 2026-cı ilə kimi, 280 min hektar ərazi minalardan təmizlənəcək. Bu ərazilərə qayıdan keçmiş köçkünlər doğma ocaqlarında dövlətin tikdiyi evlərdə rahat, firavan həyat yaşayacaqlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Rusiya Azərbaycana qarşı təhdid kampaniyası həyata keçirir

**Rusiyanın son dövrlər Azərbaycana qarşı atdığı addımlarında qonşuluq münasibətinə yaraşmayan hərəkətlər özünü göstərir. Hazırda dünyada təklənən Rusiyanın strateji müttəfiqinə qarşı belə xoşagəlməz münasibət sərgiləməsi yaxşı heç nə vəd etmir.**



TASS informasiya agentliyində Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alan ifadələrin yer alması Kremlin işğalçı ölkəni dəstəklədiyini bir daha göstərir.

Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı Aqşin Kərimov qəzetimizə açıqlamasında bildirib ki, Rusiya Azərbaycana qarşı imperiya imperativləri ilə təhdid kampaniyası həyata keçirir. Onun sözlərinə görə, bunun üçün Kreml koordinasiyalı informasiya əməliyyatları və təbliğat hekayələri yaratmağa çalışır: "Keçmiş Qarabağ münaqişəsinə istinad və onun bugünkü vəziyyətlə uyğunlaşdırılması cəhdi Rusiyanın Azərbaycana qarşı ərazi bütövlüyü üzərindən ritorik xətlər ətrafında birləşdiyini göstərir. Lakin Azərbaycan Rusiyanın təbliğat alətlərindəki emosional mülahizələrin çəkisini sıfırlamaq üçün əks-həmlələr reallaşdırır və Moskvanı məsuliyyətli olmağa çağırır. Eyni zamanda Bakı Türkiyə ilə strateji müttəfiqlik əlaqələrini dərinləşdirir, paralel olaraq NATO ilə tərəfdaşlıq münasibətlərini irəlilədir. Bunlar Rusiyaya qarşı cəbhə kimi nəzərdən keçirilməsə də, Azərbaycanın çəkindiricilik imkanlarına müsbət təsirlər göstərir".

Ekspert qeyd edib ki, Azərbaycanın faktiki müdafiə doktrinası Rusiyadan gələn təhlükələri azaltmaq üçün strateji imkanları özündə cəmləşdirir. Deməli, Azərbaycan Rusiya ilə əlaqələrdə məsuliyyətli, Rusiya isə əksinə olaraq məsuliyyətsiz mövqedədir. "Azərbaycan tələb edir ki, Rusiya xarici siyasətdə daha rasional davransın, lakin Kremlin Ukraynadakı müharibə səbəbi ilə yuvarlandığı geosiyasi boşluqlar onu radikallaşmaq üçün əsassız davranışlara doğru sürükləyir. Bu, Rusiyanın Cənubi Qafqazda özünü emosional aktor kimi göstərməklə səciyyələnir. Hərçənd ki, Rusiya Azərbaycanın yaratdığı reallıqları və bunun üzərində formalaşdırdığı regional təhlükəsizlik paradiqmalarını geri oxuda bilmək potensialında deyil. Əvəzində isə Rusiya yatmış kəşfiyyat hücrələrini aktivləşdirir və bununla regional qorxu yaratmaq kampaniyası yürüdür", - deyə o bildirib.

A.Kərimov vurğulayıb ki, bununla belə, Rusiya Azərbaycanın Ermənistan üzərindəki təsir rıçaqlarını zəiflədə bilməyəcək.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Dövlət büdcəsinin gəlirləri proqnozu üstələyib

**Bu ilin 7 ayında dövlət büdcəsinin icrasında müsbət dinamika müşahidə olunub. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 846 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb.**

Maliyyə Nazirliyinin yaydığı məlumata görə, cari ilin yanvar-iyul ayları ərzində dövlət büdcəsinin gəlirləri 23 milyard 480,9 milyon manat təşkil edib. Bu yeddi aylıq proqnozu 707,9 milyon manat və ya 3,1 faiz üstələyib.

Gəlirlərdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 10 milyard 560,8 milyon manat təşkil edərək proqnozdan 598 milyon manat və ya 6, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 26,9 milyon manat təşkil edərək proqnozdan 6,9 milyon manat və ya 34,4, sair daxilolmalar 488 milyon manat təşkil edərək proqnozdan 323,3 milyon manat və ya 2,96 dəfə çox və Dövlət Neft Fondundan transfert isə 8 milyard 447,3 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 3 milyard 589,2 milyon manat təşkil edərək proqnozdan 102,8 milyon manat və ya 2,8 faiz az, dövlət büdcəsindən maliyyələşən təşkilatların ödənişli xidmətlərindən daxilolmalar 368,7 milyon manat təşkil edərək proqnoza qarşı 117,5 milyon manat və ya 24,2 faiz az icra olunub.

Dövlət büdcəsinin xərcləri isə 2025-ci ilin 7 ayı ərzində 20 milyard 586,9 milyon manat proqnoza qarşı 19 milyard 944,6 milyon manat məbləğində icra edilib ki, bu da 96,9 faiz təşkil edir.

## Füzulidə daha bir qrup sakinə aktivlər verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunan ərazilərimizdə özünüməşğulluq proqramının icrası işlərini davam etdirir.**

Füzuli şəhərinə köçürülmüş sakinlərdən daha bir qrup şəxsə özünüməşğulluq proqramı çərçivəsində aktivlər təqdim olunub. Verilmiş avadanlıqlar hesabına proqram iştirakçıları avtotəmizləmə, kombi və sanitar qovşağın quraşdırılması, poliqrafiya xidmətləri, un məmulatları istehsalı zərfləri üzrə kiçik biznes sahələrini yaradıblar. Beləliklə, Füzuli şəhərinə köçürülmüş sakinlərdən artıq 53 şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar qurulub.

## Bu gün Qarabağ və Şərqi Zəngəzurda 50,5 mindən çox əhali yaşayır

**Qarabağda və Şərqi Zəngəzurda yenidən tikilib qurulan şəhər və kəndlərimiz öz sakinlərini qoynuna alır. Yenidən məskunlaşan yaşayış məntəqələrinin sayı aydan-aya artır. Paralel olaraq yurda dönən insanların da sayı çoxalır.**

Bu, əlbəttə, ölkənin sosial-iqtisadi həyatına, o cümlədən urbanizasiya ilə bağlı problemlərin həllinə, şəhər və kənd əhalisinin sayının tarazlaşmasına getdikcə daha çox müsbət təsir göstərəcək.

Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən bu il iyul ayının 1-dək həmin ərazilərdə bərpası həyata keçirilmiş yaşayış məntəqələrinə 15300 nəfərdən ibarət 3839 ailənin qayıdışı təmin olunub. Bu barədə Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına istinadən Dövlət Statistika Komitəsi (DSK) məlumat verib.



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən DSK həmçinin bildirir ki, sözügedən tarixə işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxslərin və onların ailə üzvlərinin sayı 34034 nəfər olub. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində təhsil alan 1150 tələbə də nəzərə alınmaqla işğaldan azad olunmuş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı 50484 nəfər təşkil edib.

Dövlət Statistika Komitəsinin digər məlumatlarında isə Azərbaycanın bugünkü ümumi demoqrafik mənzərəsi əks olunur. Belə ki, ölkə əhalisinin sayı bu ilin əvvəlindən 14205 nəfər və ya 0,14 faiz artaraq iyun ayının 1-i vəziyyətinə 10 milyon 239 min 94 nəfərə çatıb.

Ölkə əhalisinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Cari ilin yanvar-may aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 38836 doğulan körpə qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərində bu göstərici azalaraq 9,8-dən 9,2-yə düşüb. Bu fakt da ölkədə doğumun səviyyəsinin aşağı düşməsinin davam etdiyini göstərir.

İlin əvvəlindən dünyaya gələn körpələrdən 1264-ü əkiz, 57-si isə üçəmdir.

Yeni doğulanlardan oğlan uşaqlarının xüsusi çəkisi 53,2, qız uşaqlarının xüsusi çəkisi 46,8 faiz olub. Bu fakt isə ölkəmizdə yenə də dünyaya gələcək uşaqların cins tərkibində bioloji tarazlığın pozulduğunu göstərir. Belə ki, bu sahənin mütəxəssislərinin fikrincə, nisbət 51 faiz (oğlanlar) və 49 faiz (qızlar) olmalıdır.

Statistik rəqəmlər ölkədə 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölümün səviyyəsinin azalaraq 6-dan 5,9-a düşdüyünü göstərir. Bu, əlbəttə, dövlətin insanların sağlamlığına göstərdiyi böyük qayğı, əhalinin maddi rifah halının getdikcə yaxşılaşması, eləcə də milli-mənəvi dəyərlərə söykənən ailə bağlarımızın, məsələn, yaşlılara diqqət və sevginin nəticəsində mümkün olur.

Daha xoş bir xəbər ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayının 4,1-dən 4,7-yə qədər artması və boşanmaların sayının 2,1-dən 2-yə düşməsidir. Ümumilikdə Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin ilk beş ayında 19783 nikah və 8678 boşanma halları qeydə alınıb.

Keçən ilin göstəricilərinə əsaslanaraq deyə bilərik ki, nikaha daxilolma Şərqi Zəngəzur, Dağlıq Şirvan, Qarabağ, Mil-Muğan, Lənkəran-Astara, Bakı şəhəri, Qazax-Tovuz və Şirvan-Salyan iqtisadi rayonlarında ölkə göstəricisindən yüksək olub. 2024-cü ilin göstəricilərinə görə, ölkəmizdə miqrasiyanın saldosu da müsbətdir. Belə ki, ötən il Azərbaycana daimi yaşamaq üçün 3016 nəfər gəlib. Ölkədən 2298 nəfər birdəfəlik başqa yerə köçüb.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Etibarlı gəlir mənbəyi - qızıl ixracı

### Yaxın illər ölkəmizdə daha bir qızıl yatağının istismarına başlanacaq

**Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və qeyri neft-qaz sektorunun inkişafı üçün bir sıra tədbirlər görülür. Bunlardan biri də qeyri neft-qaz mədənçıxarması sənayesidir. Son dövrlər ölkədə qızıl hasilatının artması və ixracda önəmli mövqeyə çıxması da bununla bağlıdır.**



Cari ilin ilk yarısında qızıl ixracından əldə edilən gəlirlərin həcmində yüksək artım müşahidə olunub. Belə ki, yanvar-iyun aylarında Azərbaycan dünya bazarına 144 milyon dollar dəyərində qızıl satışa çıxarıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə çoxdur.

Qızıl hasilatını artırmaq üçün yeni yataqların kəşf edilməsi ilkin şərtdir. "AzerGold" QSC-nin idarə heyətinin sədri Zakir İbrahimov bildirir ki, səhmdar cəmiyyət dövlət sifarişi əsasında Şərqi Zəngəzur, Gəncə-Daşkəsən iqtisadi rayonları və Naxçıvanda müasir tədqiqat üsulları - hiperspektral peyk çəkilişləri və aeroelektromaqnetik metodlarla geoloji tədqiqatlar aparılır. Onun sözlərinə görə, bu texnologiyalar hasilata qədərki mərhələdə xərcləri azaldır, geoloji kəşfiyyat işlərinin dəqiqliyini və sürətini artırır: rılaraq kəşfiyyat proqramının yekunlaşdırılması nəzərdə tutulub. Bu tədqiqatların nəticəsində ölkə ərazisinin Kiçik Qafqaz hissəsinin vahid hiperspektral xəritələnməsi tamamlanacaq. Həmin tədqiqatlar və toplanmış geoloji məlumatlar ölkənin dağ-mədən sahəsində malik olduğu bütün potensialı haqqında dəqiq təsəvvür yaratmaqla perspektivli sahələrdə işə başlanılması üçün müvafiq qərarların verilməsinə

"Aparılan tədqiqatlar nəticəsində həmin ərazilərin perspektivləri müəyyən olunacaq. Gələn il tədqiqat sahələrinin ilkin qiymətləndirilməsi apa-

imkan yaradacaq. Bu, ölkə iqtisadiyyatının inkişafı üçün yeni dağ-mədən layihələrinə investorların və ya milli operator şirkəti qismində "AzerGold" QSC-nin cəlb edilməsinə imkan verəcək".

Z.İbrahimov həmçinin qeyd edib ki, dağ-mədən işlərini sürətləndirmək məqsədi ilə dövlət-özəl sektor tərəfdaşlığı çərçivəsində yeni müəssisə yaradılıb. "AzerGold"un törəmə şirkəti - "AzerBlast" MMC dağ-mədən sektorunda istifadə edilən mülki partlayıcı maddələrə yaranan tələbatı yerli xammal hesabına ödəməklə məşğul olan yeni istehsal sahəsidir. Qarşıdakı illərdə mədənçıxarma, qazıntı sahələri, inşaat, yol təsərrüfatı və digər sahələrdə icra edilən partlayış işlərində məhz dövlətimizin pay sahibi olduğu "AzerBlast" şirkətinin istehsal etdiyi məhsullardan geniş şəkildə istifadə ediləcək.

Ölkədə yeni qızıl yataqlarının kəşf edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında da kəşfiyyat işləri aparılır. Culfa rayonundakı "Ortakənd" qızıl yatağının istismarı üçün hazırlıq işləri görülür. Tədqiqatlara görə, yerin təkində qızıl ehtiyatı 542 min unsiya dəyərindədir.

Zakir İbrahimov bildirir ki, qızıl ehtiyatının satılabilən miqdarı isə 237 min unsiya qiymətləndirilib. "Ortakənd" yatağının 2028-ci ildə istismara verilməsi nəzərdə tutulub. Hazırda ilkin texniki-iqtisadi hesablama ("Scoping study") parametrləri üzrə araşdırmalar davam edir. Sosial, iqtisadi və ekoloji amillər nəzərə alınmaqla yatağın satılabilən ehtiyatlarının daha da artırılması üçün optimal hasilat və emal texnologiyaları araşdırılır.

Onun sözlərinə görə, Culfa və Ordubad rayonlarında yerləşən digər perspektiv sahələrdə də tədqiqatlar aparılır: "Söhbət "Göydağ" mis-molibden, "Başkənd" mis və "Nəsirvaz" polimetal təzahürləri sahələrindən gedir. Cari il ərzində "Göydağ" və "Başkənd" yataqlarının ehtiyatlarının beynəlxalq standartlara uyğun hesablanması nəzərdə tutulub. "Göydağ" yatağının 2029-cu ildə, digər yataqların tədqiqatların son nəticələrindən asılı olaraq növbəti illərdə istismara verilməsi proqnozlaşdırılır".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## 6 ayda qeyri-neft məhsullarının ixracı 10 faiz artıb

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi "İxrac icmalı"nın iyul sayını təqdim edib. İcmala əsasən, cari ilin yanvar-iyun aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artaraq 1,8 milyard dollar təşkil edib.**

Bu dövrdə yeyinti məhsulları üzrə ixrac 19,1 faiz artaraq dəyəri 564,7 milyon dollara bərabər olub. İxrac edilən şəkər ötən ilin müvafiq dövrü ilə müqayisədə 54,4, kimya sənayesi məhsulları 38,7, meyvə-tərəvəz 24,3, pambıq iplik 16,6, qara metallar və onlardan hazırlanan məmulatlar 12,5, çay 2, alüminium və ondan hazırlanan məmulatlar 0,7 faiz artıb. Aqrar sektorda görülən tədbirlər, o cümlədən verilən subsidiyalar istehsalın artmasına imkan yaradıb. Bu, özünü həm daxili tələbatın ödənilməsində, həm də ixracda göstərib. Belə ki, cari ilin 6 ayı ərzində aqrar məhsulların ixracı 21,9, aqrar-sənaye məhsullarının ixracı isə 7,7 faiz çoxalıb. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı hesabat dövründə 18,2 faiz yüksəlib.




İxrac edilmiş qeyri-neft sektoruna aid məhsulların siyahısında pomidor (tomat) birinci, qızıl ikinci, pambıq isə üçüncü olub. İyun ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında da pomidor (tomat) birinci, qızıl ikinci olub. Üçüncü isə təzə albalı və gilas ixrac edilib.

Hesabat dövründə ölkəmizdən ən çox qeyri-neft sektoruna aid məhsul alan Rusiya, Türkiyə, Gürcüstan, İsveçrə və Ukrayna olub. İyun ayında da bu ixrac coğrafiyası dəyişməyib. Qeyri-neft məhsulları ən çox bu ölkələrə göndərilib.

6 ay üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" QSC, "Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti, "P-AQRO" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Avrora" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Sahdag SY" Məhdud Məsuliyyətli Cəmiyyəti, "UYTROP" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Green Tech" MMC təmsil ediliblər.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edib. Daha sonra siyahıda bu şirkətlər təmsil olunublar: "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "SOCAR-DALĞIC" MMC, "Azəbaycan Dəmir Yolları" QSC, "İstisu" mineral su zavodu MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bunlardan əlavə, hesabat dövründə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 8,5 milyon dollar dəyərində telekommunikasiya xidməti ixracını həyata keçirib. 6 ay ərzində "Azərkosmos" tərəfindən dünyanın 41 ölkəsinə 8,5 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac olunub. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 65 faizini təşkil edib. Cari ilin iyun ayında isə "Azərkosmos" dünyanın 34 ölkəsinə 1,5 milyon dollar dəyərində xidmət göstərib. Bu dövr ərzində "Azərkosmos"un peyk telekommunikasiya xidmətlərindən ən çox Birləşmiş Krallıq, Lüksemburq, Nigeriya, Türkiyə və Misir istifadə edib.

***R.MÜTƏLLİBOV,***
***"Azərbaycan"***

## 3600-dən çox qazi reabilitasiya xidmətləri ilə təmin edilib

**Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya müəssisələrində 3600-dən çox qazi reabilitasiya xidmətləri ilə təmin edilib.**

Son illər reabilitasiya mərkəzlərinin müasir tələblərə uyğun qurulması və şəbəkəsinin genişləndirilməsi, yeni avadanlıqlarla təchizatı istiqamətində mühüm işlər aparılıb.

Bu müəssisələrdə xidmət keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə, xidmət göstərilənlərin illik sayının 10 dəfədən çox, əlilliyi olan şəxslərə verilən reabilitasiya vasitələrinin illik sayının 3 dəfə artırılmasına nail olunub.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin hər biri fərdi reabilitasiya proqramı əsasında mütəmadi olaraq bərpa-müalicə kursları keçib, effektiv fizioterapevtik prosedurlara cəlb ediliblər.

Bu kurslar onların səhhətində yaxşılaşmaya, reabilitasiya potensiallarının reallaşdırılması istqiamətində mühüm irəliləyişə imkan yaradıb.

Vətən müharibəsindən sonra Agentlik tərəfindən 2350-dək qazimiz isə 79,4 min reabilitasiya vasitəsi, o cümlədən 500-ə yaxın qazimiz 610-dan çox son nəsil yüksək texnologiyalı protezlə təmin edilib.







# Mədəniyyət





● Toğrul Nərimanbəyov - 95

# Fırçanın möcüzəsi

**Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Dövlət mükafatları laureatı, "İstiqlal" və "Şərəf" ordenli Xalq rəssamı Toğrul Nərimanbəyov hələ sağlığında böyük şöhrət qazanıb, qədirbilən xalqımız və dövlətimiz tərəfindən həmişə hörmətlə qarşılanıb və yad edilib.**



Bu gün 95 yaşı tamam olan rəssam hələ sovetlər dönəmində Azərbaycan təsviri sənət ustalarından SSRİ-nin ən yüksək fəxri adı sayılan SSRİ Xalq rəssamı adına layiq görülən üç azərbaycanlı rəssamdan biri olub. Doğma diyarımızı, milli xüsusiyyətlərimizi, etnoqrafiyamızı sözlə yaradan dahi yazıçımız Cəlil Məmmədquluzadə kimi, Toğrul Nərimanbəyov da bunu rənglərlə tərənnüm edib, özümüzə və başqalarına tanıda bilib.

İstedadlı rəssam, görkəmli incəsənət xadimi T.Nərimanbəyov 1930-cu ildə anadan olub. Əslən Şuşalı idi. 1950-ci ildə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu, 1955-ci ildə isə Vilnüs şəhərində Litva Dövlət Rəssamlıq İnstitutunu bitirib. 1950-ci ildən etibarən əsərləri ilə yerli və beynəlxalq sərgilərin fəal iştirakçısı olub. 1955-ci ildə SSRİ Rəssamlar İttifaqına üzv qəbul olunan sənətkar 1964-cü ildə Əməkdar, 1967-ci ildə isə Xalq rəssamı fəxri adlarına layiq görülüb. T.Nərimanbəyov 1974-cü ildə Azərbaycan SSR-nin, 1980-ci ildə isə SSRİ-nin Dövlət mükafatlarına layiq görülüb. 1989-cu ildə SSRİ Xalq rəssamı adını alan T.Nərimanbəyov bir sıra ölkələrdə yaradıcılıq ezamiyyətlərində olub. Dəfələrlə respublikamızda və xarici ölkələrdə fərdi sərgiləri keçirilib. Dünyanın müxtəlif ölkələrinin muzey, qalereya və şəxsi kolleksiyalarında rəssamın əsərləri saxlanılır.

T.Nərimanbəyov hələ Vilnüsdə təhsil aldığı illərdən özünü istedadlı rəssam kimi göstərməyə başlayıb. İxtisasca monumentalçı rəssam olması ona həm asanlıqla novatorluq meyillərini büruzə verməyə şərait yaradıb, həm də mövzuların bədii həllinə başqa prizmadan yanaşma üsulları formalaşdırıb. Rəssam müəllimi, məşhur litvalı rəssam Xouzas Mikenası həmişə hörmətlə xatırlayardı. Eyni zamanda rəssam incəsənətin digər bir sahəsi olan musiqi ilə də ciddi surətdə maraqlanıb. Müsahibələrinin birində deyirdi: "Özümü dərk edəndən musiqi ilə maraqlanıram. Mən oxumağı çox xoşlayıram. Bəzən hətta oxuya-oxuya işləyirəm. Mənə belə gəlir ki, rəssam kimi yetişə bilməsəydim, vokalçı olardım...". Bu gün cəsarətlə demək olar ki, rəssam hələ yaradıcılığının erkən dövrlərindən başlayaraq tapdalanmış cığırla getməyib, yenicə yaratmağa başladığı "Toğrul Nərimanbəyov yolu" ilə irəliləməyə başlayıb. Təbii ki, bu "yol"la irəliləmək rəssam üçün heç də asan olmayıb. Lakin tutduğu mövqedən çəkinməyən rəssam sonda öz "yol"unu və dəst-xətini yarada bilib.

Toğrul Nərimanbəyovun yaradıcılığı çoxşaxəlidir: tematik tablolar, portretlər, mənzərələr, natürmortlar,




qrafika əsərləri, divar boyakarlığı, teatr dekorasiyaları və s. Onun yaradıcılığının başlıca xüsusiyyətləri kimi obrazların monumentallığını, kompozisiyanın dolğunluğunu, obrazlar bolluğunu, bədii şərti dekorativliyi, zəngin koloriti, personajların ustalıqla bilərəkdən qeyri-mütənasib işlənməsini, perspektivin həllində isə predmetlərə çoxbucaqlı baxış istiqamətinin seçilməsini göstərmək olar. T.Nərimanbəyov yaradıcılıq prosesində çox sərbəst idi. Rəssam çox vaxt təsviri sənət nəzəriyyəsində qəbul olunmuş kanonların və məlum bədii çərçivələrin ustalıqla əksinə gedərək, sonda peşəkarlar tərəfindən rəğbətlə qarşılanan sənət əsərləri yaratmaq qabiliyyətini təsdiqləmiş nadir sənətkarlardan idi.




T.Nərimanbəyov yaradıcılığının ilk dövrünə aid əsərlərdən "Bayıl mənzərəsi", "Fırtınadan da güclü", "Səadət", "Sevinc", "Həyat naminə", "İşıqlı gələcək uğrunda" və başqalarını qeyd etmək olar. Əsərlərin mövzu dairəsinin zənginliyindən də göründüyü kimi, o, daim axtarışda olmuşdur. Rəssam ona yaradıcılıq sevincinə bələnmiş uğur gətirəcək işıqlı arzularının zirvəsini tezliklə fəth etmək naminə sanki həmişə mübarizə aparmışdır.

Bu istək sonradan da rəssamı bütün həyatı boyu müşahidə etmişdir. "Şair Fikrət Qoca", "Rəssamın ailəsi", "Yazıçı Anar", "Səttar Bəhlulzadə", "Ana" və s. portretlərində rəssam ona yaxın olan "məslək dostları"nın, "silahdaş"larının canlı obrazlarını yaradıb. S.Bəhlulzadə ilə çox yaxın dost olan T.Nərimanbəyov onun bir neçə yaddaqalan obrazını yaratmağa nail olub. Doğrudan da, S.Bəhlulzadə dünyasını onun qədər yaxından duya və tanıya biləcək sənətkar tapmaq çətindir. Bu, bəlkə də ilahinin lütfü idi ki, S.Bəhlulzadə ömrünün və sənətinin sirlərini daşıya biləcək gənc rəssamı S.Bəhlulzadəyə tuş gətirmişdi. Ona həsr olunmuş əsərlərinin birində - kompozisiyanın mərkəzində çılğınlığı duyulan, çərçivələrə sığışmayan, barmağından əskik olmayan papirosunun tüstüsü ərşə qalxan, dərin fikirlərə dalmış S.Bəhlulzadə sanki hansısa yaradacağı yeni əsəri barədə düşünür. Əsərin obraza canlılıq bəxş edən kolorit həlli də son dərəcə ustalıqla işlənilib. Son nəticədə o dostunun süni zahiri keyfiyyətlərdən, aldadıcı poza təəssüratından uzaq, rəssamın daxili aləmini, iç dünyasını, psixoloji xüsusiyyətlərini açan diqqətçəkici obraz yaradıb. Bundan başqa, özündə yaradıcı adamlara xoş keyfiyyətləri yaşadan "Şair Rəsul Rza", "Gənc rəssam Səhhət Veysov" və "Maqsud İbrahimbəyov" portretlərində də T.Nərimanbəyov bədii təxəyyülünün xüsusiyyətləri qabarıqdır.

T.Nərimanbəyov çoxsaylı mənzərələrində Bakını, doğma Vətənimizin gözəl guşələrini tərənnüm edir. "Doğma şəhər", "Bakı", "Qədim Naxçıvanın panoramı", "Göyçay bağlarında", "Dağların mahnısı" və s. mənzərələrində təbiətimizin zəngin gözəlliklərinin, bərəkətli torpağımızın yetirdiyi bol nemətlərin insanda yaratdığı sehrkar assosiasiyanın təsiri altına düşməmək mümkünsüzdür. "Qədim Naxçıvanın panoramı" adlı əsər adama doğma Naxçıvanımızın qədim tarixi və əski mənzərəsi haqda çox şey deyir.

Rəssamın "Emalatxanada", "Kafedə", "Qız Qalası", "Talış dağlarında", "Yaylaqda", "Çoban ailəsi", "Məhsul bayramı", "Bağda çayxana", "Bakıda bazar" və s. əsərlərinin hər biri haqqında geniş söz açılmağa layiq sənət nümunələridir. Belə tablolara rəğbətini gizlətməyən S.Bəhlulzadənin "Toğrulun əsərləri bərəkətli bir süfrəni xatırladır. Bu süfrədə hər cür nemət var. Özü də bu, doğma Azərbaycan torpağının nemətləridir! Toğrulun əsərlərindən torpağımızın ətri gəlir..." fikrini söyləməsi də həmin əsərlərin sənətkarlıqla yaradıldığını təsdiqləyir.

T.Nərimanbəyovun yaradıcılığının səciyyəvi xüsusiyyətlərini özündə əks etdirən natürmortlar da bu janrın onun yaradıcılığında yeni bir zirvəyə yüksəldiyindən xəbər verir. Onun bu cür əsərlərinə "Natürmort. Narlar", "Narlar", "Natürmort. Nar ağacı" və başqalarını göstərmək olar.

T.Nərimanbəyov Azərbaycan Dövlət Kukla Teatrının, Milli Məclisin binasının və keçmiş "Moskva" mehmanxanasının foyelərini bənzərsiz rəssam təxəyyülünün şahanə fantaziyası ilə qədim incəsənətimizdən gələn ənənələrə tapınmaqla misilsiz sənət inciləri ilə bəzəmişdir.

Rəssam televiziya çıxışlarının birində etiraf etmişdi ki, "Muğamı çox sevirəm, lakin ifa edə bilmirəm, ifa edərkən gözlərimdən yaş axır". "Muğam", "Musiqiçilər" adlı əsərlərini hələ muğam sənətimizin zəif təbliğ edildiyi vaxtlarda yaratdığını nəzərə alsaq, sənətkarın muğam sənətinin alt qatlarında gizlənən fəlsəfi mahiyyətinə dərindən bələdliyini bir daha duymuş oluruq.

T.Nərimanbəyov eyni zamanda gözəl səs tembrinə malik olub. O, Azərbaycanın və dünya vokal sənətinin şah əsərlərini ifa etməkdən yorulmurdu.

1998-ci ildə Bakıda təşkil olunan möhtəşəm konsertində Ümummilli Lider Heydər Əliyevin iştirak etməsi, orada rəssamla görüşməsi T.Nərimanbəyov ömrünün ən yaddaqalan məqamlarından idi. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin "Toğrul Nərimanbəyovun 80 illik yubileyi haqqında" imzaladığı sərəncamda rəssamın yaradıcılığına verilən yüksək qiymətin, göstərilən diqqət və qayğının bariz nümunəsidir. T.Nərimanbəyov həmçinin müstəqil Azərbaycanın "İstiqlal" (2000) və "Şərəf" (2010) ordenləri ilə təltif edilib.

Daim yüksək sənət amallarına sadiq, tükənməz yaradıcılıq şövqü ilə bədii əsərlər yaratmış T.Nərimanbəyov Azərbaycan təsviri sənət tarixində və onu tanıyanların xatirəsində həmişə yaşayacaq.

***Əsəd QULİYEV,***
***Rəssamlar İttifaqının üzvü,***
***sənətşünas***

● Yay gündəliyi

# Bakı parkları əsl istirahət məkanıdır

**Havaların belə qızmar keçməsini çoxları bəlkə də birinci dəfədir görür. Sağlamlıq üçün məqbul sayılmayan belə havalarda, son illər "iqlim dəyişikliyi" ifadəsini tez-tez eşidirik. Görünür təbiətin bu dəyişikliyinə öyrəşməliyik... Yaşadığımız bu qızmar avqust günlərində müəyyən qayğılar səbəbindən paytaxtdan kənara çıxa bilməyən sakinlər boş vaxtlarını və həftəsonu istirahət günlərini şəhərin park və bağlarında, Bakıətrafı qəsəbə və kəndlərində, habelə Xəzəryanı çimərliklərdə keçirirlər.**



Gündən-günə gözəlləşən, abadlaşan Bakı və onun ətraf qəsəbələrində insanların istirahətlərinin mənalı keçməsi üçün lazımi infrastruktur yaradılıb. Bakının gəzməli, istirahət etməli ünvanlarından söhbət düşəndə ilk növbədə Xəzərin mirvari boyunbağısı adlandırılan Bakı bulvarı yada düşür. 116 ilə yaxın yaşı olan, təxminən 12 il əvvələdək 3,5 hektarlıq ərazini əhatə edən Sahil bağı Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü və sərəncamı əsasında genişləndirilərək 16 hektara çatdırılıb, cənnətməkan bir gəzinti-istirahət mərkəzinə çevrilib. Xan çinarın kölgəsində oturacaqda əyləşən ahıl müsahiblərimiz - paytaxt sakinləri Telman Musayev və Nurəddin Adıgözəlovla tanış oluruq.

- İstilərə necə dözürsünüz? - sualına ilk olaraq Telman müəllim cavab verdi:

- Hər ikimiz indi bu gözəl məkandayıq, əvvəllər Nəbatat bağına gedərdik, hər gün 2-3 saat gəzintidə oluruq. Ora da yaxşıdır, amma nədənsə bulvar məni daha çox özünə çəkir. Yaradılan şərait, səliqə-sahman, bir sözlə, görülən işlər göz oxşayır.

Telman müəllim əli ilə Hökumət evini göstərərək deyir:

- Uzun illər bu binada işləmişik, yorulanda otağımın pəncərəsindən Xəzərə baxardım, az sonra əhvali-ruhiyyəm yüksəlirdi. İndi pensiyadayıq, yaşın bu vədəsində belə, istirahət, gəzinti bizim üçün əvəzolunmazdır. İnsafən desək, son illər Bakıda yaşıllıqların artırılmasına, yeni parklar, istirahət guşələri yaradılmasına xüsusi diqqət yetirilir.



Sözə qüvvət kimi Nurədddin müəllim əlavə edir:

- Ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir neçə il öncə Bakıda, mənim ən çox sevdiyim Mərkəzi Nəbatat Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olarkən ictimaiyyət nümayəndəsi kimi mən də buna şahidlik edirdim. Bərpa işləri nəticəsində bağın ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Bildiyimə görə, bağda 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. 130-a yaxın nadir bitki növü qorunur. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam etdirilir. Bu, bizi çox sevindirir.

Bakıda son illər istifadəyə verilən yeni istirahət məkanlarından biri də Xətai rayonu ərazisində yaradılan "Gənclik" parkıdır. Günün hansı vaxtı getsən burada da çox insanla rastlaşa bilərsən. Dörd il bundan əvvəl açılışında ölkə başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdikləri bu park müasirliyi ilə gəzintiyə çıxanlarda xoş ovqat yaradır. Park 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac və kol var. Həmçinin parkın ərazisində yaşıllıqlar salınıb. Bir sözlə, sakinlərin və qonaqların parkda asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait var.

Bu istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi yaradılıb. Zövqlə hazırlanan "Ürəklər" kompozisiyası paytaxtımıza, təbiətimizə, insanlarımıza olan sevgini tərənnüm edir.

Parkda olarkən gəzintiyə gələn Xətai rayon sakinləri Əli və Əlirza ilə görüşdük. Söhbətdən məlum oldu ki, qardaşdırlar, hər ikisi təqaüdçüdür, parka yaxın ərazidə yaşayırlar.

- Necədir, burada gəzməyə, istirahət etməyə dəyərmi? - soruşanda qardaşların böyüyü Əli müəllim dedi:

- Bu parkın əvəzi yoxdur, sovet dönəmində respublika Kənd Təsərrüfatı Nazirliyində məsul işdə çalışmışam. İşimlə əlaqədar respublikamızın bütün rayonlarında olmuşam, vallah, belə istirahət parkı görməmişəm, bəlkə indi var, deyə bilmərəm. Dayandığımız bu ərazi bir zamanlar baxımsız bir yer idi. O "mənzərəni" görənlər yaxşı bilir, indi həmin görkəmindən əsər-əlamət qalmayıb. Aparılan yenidənqurma və yaşıllaşdırma nəticəsində ərazi Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib.

Söhbəti Əlirza müəllim davam etdirərək dedi:

- İstirahət yalnız gəzmək və kölgədə dayanmaqla bitmir. Burada əyləncə və idmanla məşğul olmaq üçün hər cür şərait yaradılıb, ərazidə iaşə obyektlərinin olması, bir sözlə, insanların istirahətinin və asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastrukturun yaradılması hamıda məmnunluq doğurur. Burada bağlı və açıq futbol meydançaları, ziyarətçilər üçün piknik məntəqələri fəaliyyət göstərir. Xüsusi qaçış cığırları, velosiped yolları idmansevərlərin ən çox üz tutduqları məkanlardandır. Yaxınlıqda yaşayan tanışlarım, dostlarım var, Hövsanda, Mərdəkanda, Novxanıda, Bilgəhdə, Sumqayıtda, digər Xəzərətrafı ərazilərdə bağları var, əvvəllər yay başlayandan ora gedib-gəlirdilər. Amma indi, yollardakı tıxacdan, benzin sərfindən, vaxt ikisindən can qurtarmaq üçün bu parka gəlirlər. Bağa da gedirlər, amma həftə ilə, ayla qalmaq üçün, daha əvvəlki kimi səhər get - axşam gəl, şənbə get - bazar gəl söbəti yoxdu... Yaradılan bu şəraitə görə biz sakinlər dövlətimizin başçısına, Heydər Əliyev Fonduna çox minnətdarıq.

Parkı gəzdikcə hiss edirsən ki, insanlar özlərini çox rahat hiss edirlər. Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür.

Azərbaycan Prezidentinin 2023-cü il 18 avqust və 2024-cü il 13 yanvar tarixli sərəncamlarına əsasən Nərimanov rayonunda - metronun "Gənclik" stansiyasının yaxınlığında, Vaqif prospekti, Ceyhun Hacıbəyli, Şəmsi Rəhimov və Nəsib bəy Yusifbəyli küçələrinin kəsişməsində salınan yeni park əraziyə xüsusi görkəm verir.

Cari ilin fevral ayında istifadəyə verilən bu park da istirahət üçün şəhər sakinlərinin ən çox üz tutduqları məkandır. Əvvəllər "Antena" sahəsi kimi tanınan bu ərazidə yararsız vəziyyətdə olan bəzi tikililər sökülüb. Ərazisi daha da genişləndirilərək 19 hektara çatdırılıb. Parkın ərazisindəki mövcud tarixi inzibati bina saxlanılıb və binada bərpa işləri aparılıb.

Parkda sakinlərin və qonaqların asudə vaxtlarının səmərəli təşkili üçün müasir tələblərə cavab verən iki restoran inşa olunub. Həmçinin burada fəvvarə də quraşdırılıb. Bu da istirahət məkanına əlavə gözəllik verir.

Yeni parkla yaxınlıqdakı "Dədə Qorqud" parkını əlaqələndirən yeraltı keçid də inşa olunub. Bu da sakinlərin təhlükəsiz və rahat hərəkətinə şərait yaradır.

Paytaxt Bakıda və onun ətraf qəsəbələrində yeni parkların, yaşıllıq zolaqlarının və istirahət guşələrinin yaradılması mütəmadi xarakter alıb. Bu sıradan cari ilin may ayından paytaxtın Yasamal rayonunda, Təzə Pir məscidinin tinindən Daxili İşlər Nazirliyinin (DİN) və Baş Prokurorluğun binalarına qədər olan ərazinin Mərkəzi Parka birləşdirilməsi üçün söküntü işlərinə başlanılıb.

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin məlumatına görə, Mərkəzi Parkın genişləndirilməsi zamanı Süleyman Tağızadə, Mirzə Fətəli Axundzadə, Lev Tolstoy, Murtuza Muxtarov, Rza Quliyev küçələri, Nizami, Zərgərpalan, Həzi Aslanov, Əli Quliyev, Bəşir Səfəroğlu, Vidadi, Çingiz Mustafayev küçələri arasındakı tarix və mədəniyyət abidələri qorunacaq. Həmin abidələr dövlət mühafizəsindədir və hər hansı tarixi abidənin sökülməsi nəzərdə tutulmur.

Xatırladaq ki, Bakı şəhəri və onun ətraf ərazilərində bağlarla yanaşı, 17-dən çox rahat və gözəl park var. Bu parklar insanların asudə vaxtlarını əyləncəli və səmərəli keçirməsi ilə yanaşı, biomüxtəlifliyin qorunmasında əhəmiyyətli rol oynayır. Parkların hamısında, xüsusən də Heydər Əliyev Muzey-Park Kompleksində, Dağüstü parkda, Zərifə Əliyeva adına parkda, Nizami parkında, Atatürk parkında, Qış parkında, Yasamal meşə-parkında əlavə dekorativ kollar əkilmiş, yaşıllıq zolaqları yenilənmiş, işıqlandırma sistemləri təzələnmiş, gəzinti üçün hər cür şərait yaradılmışdır.

Prezident İlham Əliyevin tapşırıq və göstərişləri ilə həyata keçirilən abadlıq-quruculuq işləri sırasında Bakıda yeni parkların salınması prioritet olmuşdur. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir yaşıllıq zolaqlarının salınması, Bakının qədim tarixi memarlıq nümunələrinin bərpası və müasir binaların tikilib istifadəyə verilməsi ölkəmizdə həyata keçirilən quruculuq işlərinin daha da genişləndiyini göstərir. Cari ilin ilk günlərində istifadəyə verilən Mərkəzi Parkın ikinci hissəsi paytaxtımızın daha da gözəlləşməsi, şəhərin "ağciyəri" sayılan yaşıl guşələrin sayının artırılması və insanların səmərəli istirahəti baxımından mühüm əhəmiyyət daşıyır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***



# Fiziki məhdudiyyətli uşaqlar üçün "Əngəlsiz dünya"









**Hər bir dövlətin gələcəyini uşaqlar və gənclər müəyyən edir. Buna görə də onların düzgün tərbiyə olunması, fiziki və mənəvi cəhətdən inkişaf etməsi, cəmiyyətdə bir şəxsiyyət kimi formalaşması vacib amillərdən biridir. Bu səbəbdən onların tərbiyəsi çox önəmlidir.**

Bu fonda əlilliyi olan şəxslərə, xüsusilə də uşaqlara diqqət və qayğı cəmiyyətimizin hər bir üzvünün borcudur. Bu günlərdə keçirilən "Əngəlsiz dünya" adlı layihə də hər uşaq üçün ümid, hər gülümsəmə üçün səbəbdir. "QOLAT Sport Service"nin təşkilatçılığı, SOCAR-ın sponsorluğu ilə təşkil edilən layihənin məqsədi həssas qrupa aid olan uşaqların fiziki və psixoloji inkişafına dəstək olmaq, onların sosiallaşmasını təmin etmək, idman vasitəsilə sağlam həyat tərzini təşviq etməkdir.

"QOLAT Sport Service"nin direktoru Səid Bağırov deyib ki, layihə sosial çətinliklərlə üzləşən, uşaq evlərində böyüyən və xüsusi qayğıya ehtiyacı olan uşaqlara idmanın gücü ilə həyat sevinci bəxş etməyi qarşısına məqsəd qoyub: "Fiziki qüsurlu, əlil uşaqlarla söhbət etdikdə içimizdə ruh yüksəkliyi yaranır. Ona görə ki, onlar həyatı, yaşamağı bizdən daha çox sevirlər. Özlərinə qapanmırlar, əylənməyin və şənlənməyin müxtəlif üsullarını tapırlar. Burada əsas məqsəd yalnız idman oyunları təşkil etmək deyil. Onların qəlbinə toxunmaq, inam yaratmaq və birlikdə güclü ola biləcəyimizi göstərməkdir. Fiziki və psixoloji inkişaf, sosiallaşma və özünəinamın gücləndirilməsi sağlam həyat tərzinə təşviq - bu layihənin əsas sütunlarını təşkil edir".

*"Azərbaycan"*

OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Dövlət başçısının diplomatiyasının sədası Yaxın Şərqdən gəlir
İlham Əliyevin "Şahdəniz" layihələri davam edir
"Şahdəniz Alfa", "Şahdəniz Bravo" və tikiləcək daha bir platforma
Azərbaycan-Mərakeş tərəfdaşlığı dinamik inkişaf edir
Moskva aqressiv siyasəti ilə daxili auditoriyanın diqqətini problemlərindən yayındırmağa çalışır
Ermənistanın təxribatçı addımları nədən xəbər verir?
Zəngəzur dəhlizinin açılmasının əhəmiyyətini, nəhayət, Ermənistanda da anlayırlar

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*

# Avropa yarışlarında uğur qazanan qazaxlı idmançılarla görüş keçirilmişdir

**İspaniyanın paytaxtı Madriddə keçirilən U-15 və yeniyetmələr arasında ağırlıqqaldırma üzrə Avropa birinciliyində iştirak edən Azərbaycan milli komandasının 15 üzvündən 8 nəfəri Qazax rayon Uşaq Gənclər İdman Məktəbinin yetirməsi və "Göyəzən" Ağır Atletika Klubunun idmançıları olmuşlar.**



Qazaxlı idmançıların əldə etdikləri 3 qızıl və 4 gümüş medal Azərbaycan komandasını Avropa birinciliyində ümumi sıralamada üçüncü etmişdir.

Qazax Rayon İcra Hakimiyyətində keçirilən görüşdə RİH-in başçısı Rəcəb Babaşov çıxış edərək idmançıları əldə etdikləri nailiyyət münasibətilə təbrik etmiş, sazın, sözün beşiyi sayılan Qazaxın həm də idmançıları ilə tanındığını qeyd etmişdir: "Bu gün qürurverici haldır ki, Qazax idmançıları ağır atletika idman növündə də adlarını tarixə yazdıra bildilər". Prezident İlham Əliyevin idmançılara göstərdiyi diqqət və qayğıdan söz açan R.Babaşov bu münasibətin davam etdiyini bildirmiş, Qazax Olimpiya İdman Kompleksində, Namiq Vəliyev adına 5 nömrəli tam orta məktəbdə, Çaylı kəndində ağır atletika ilə məşğul olan idmançılar üçün idman zallarının yaradılmasını həmin münasibətin nümunəsi kimi qiymətləndirmişdir.

"Göyəzən" Ağır Atletika Klubunun ağır atletika idman növü üzrə məşqçi-müəllimi, Əməkdar məşqçi Rayət Abdalov ünvanlarına səslənən xoş sözlərə, əməklərinə verilən yüksək dəyərə görə hər kəsə minnətdarlığını bildirmişdir.

Görüşün sonunda R.Babaşov idmançılara xatirə hədiyyələri təqdim etmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Bəzi yerlərdə 41 dərəcəyədək isti olacaq

**Avqustun 7-nə gözlənilən hava şəraiti açıqlanıb.**




Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 25-29, gündüz 35-40 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 29-30, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 30-31 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında hava əsasən, yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 16-21, gündüz 28-33 dərəcə isti olacaq.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən, yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər duman gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 24-29, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək isti olacağı proqnozlaşdırılır.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Gecə və səhər duman gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-21, gündüz 28-33, bəzi yerlərdə 36 dərəcəyədək isti olacaq.

Şərqi Zəngəzurda, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-21, gündüz 28-33, bəzi yerlərdə 36 dərəcəyədək isti olacağı gözlənilir.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalanda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Gecə və səhər duman gözlənilir. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 21-26, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək isti olacaq.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 33-38, dağlarda gecə 18-23, gündüz 29-34 dərəcə isti olacağı proqnozlaşdırılır.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Gecə və səhər duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava şəraitinin günəşli keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-26, gündüz 34-38, dağlarda gecə 22-24, gündüz 30-35 dərəcə isti olacağı gözlənilir.

# Çin yenidən anticovid tədbirləri tətbiq edir

## Səbəb çikunqunya virusunun yayılmasıdır

**Çinin Quandun əyalətinin səlahiyyətliləri COVID-19 pandemiyası zamanı tətbiq edilən sanitar tədbirləri qismən bərpa edib. Hazırda bu, əhalini çikunqunya virusundan (CHIKV) qorumaq üçün edilir.**




Bloomberg-in məlumatına görə, indi əyalətin apteklərində xəstəliyin əlamətlərini yüngülləşdirməyə kömək edən dərmanlar alarkən sənəd təqdim etmək lazımdır. Alıcılar haqqında məlumatlar sanitar nəzarət orqanlarına verilir. Məlumdur ki, COVID-19 pandemiyası zamanı bu cür məlumatların toplanması xəstə insanların hərəkətini məhdudlaşdırmağa və koronavirus testlərinin çatdırılmasına nəzarət etməyə imkan verib.

Çikunqunya virusu ağcaqanad sancması ilə ötürülür. Xəstəlik bir neçə gündən sonra özünü göstərir və temperaturun 40 dərəcəyə qədər kəskin artması, aylarla davam edə bilən şiddətli oynaq, əzələ və baş ağrıları, ürəkbulanma, zəiflik və səpgilərlə müşayiət olunur.

Hazırda Quandunda bərqərar olan daşqın mövsümü və isti hava şəraiti virusu daşıyan ağcaqanadların çoxalması üçün ideal şəraitdir. Bu səbəbdən bir aydan az müddətdə təkcə Foşan şəhərində 7 mindən çox yoluxma halı qeydə alınıb.

Əyalət hökumətinin ciddi bir qapanma tətbiq edəcəyinə dair hələ heç bir əlamət yoxdur. Lakin Quandun xaricindəki bir neçə şəhər artıq Foşandan gələn səyahətçilərə məhdudiyyətlər qoyub. Onlara tapşırılıb ki, 14 gün ərzində səhhətlərinə ciddi nəzarət etsinlər və hər hansı xəstəlik əlaməti aşkar edildikdə həkim qəbuluna gəlsinlər.

Bundan başqa, ABŞ-nin Xəstəliklərə nəzarət və qarşısının alınması mərkəzləri də Çinə səyahət edən amerikalılara xəbərdarlıq edərək, ağcaqanad sancmasından qorunmağı tövsiyə edib. CHIKV ilk dəfə 1952-ci ildə Birləşmiş Tanzaniya Respublikasında, daha sonra Afrika və Asiyanın digər ölkələrində aşkarlanmışdır. Şəhər yerlərində epidemiyalar ilk dəfə 1967-ci ildə Tailandda və 1970-ci illərdə Hindistanda qeydə alınmışdır. 2004-cü ildən bəri CHIKV epidemiyaları artıb. Bu günə qədər CHIKV Asiya, Afrika, Avropa və Amerikanın 110-dan çox ölkəsində aşkar edilib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Kosmosda xərçəngin müalicəsi üzrə texnologiya sınaqdan keçirilir

**"Encapsulate" biotexnoloji şirkəti konkret bir xəstənin orqanizmindəki bədxassəli şişə qarşı hansı dərmanların ən təsirli olacağını təxmin edə bilən bir sistem hazırlayır.**

AZƏRTAC ISS Milli Laboratoriyasının məlumatına istinadla xəbər verir ki, yeni texnologiya Beynəlxalq Kosmik Stansiyadakı (BKS) mikroqravitasiyadan istifadə edir.

Layihə həm NASA, həm də ABŞ Milli Elm Fondu tərəfindən dəstəklənib. "Encapsulate" şirkəti biopsiya nümunələrindən xəstənin şişinin kiçik replikalarını yetişdirən mikrocihaz olan çip üzərində şiş platformasını inkişaf etdirmək üçün 4,88 milyon dollar vəsait cəlb edib. Bu mikroşişlər faktiki terapiya başlamazdan əvvəl ən təsirli müalicəni müəyyən etmək üçün müxtəlif dərmanlara məruz qalır.

Xüsusilə aqressiv və ya müalicəyə davamlı şişlər üçün nümunələr kosmosa göndərilir. Mikroqravitasiya şəraitində hüceyrələr şişlərin insan bədənində necə davrandığını daha dəqiq təqlid edən çox mürəkkəb 3D strukturlar əmələ gətirir. Proses tam avtomatlaşdırılıb: çip məlumatları toplayır, şişin reaksiyasını izləyir və nəticələri yenidən Yerə ötürür. Buna əsaslanaraq, həkimlər ən yaxşı müalicə variantı üçün tövsiyələr alırlar.

İlk təcrübələr "SpaceX" kosmik şirkətinin 30-cu yük missiyasında baş tutub. Burada sistem astronavtların iştirakı olmadan müstəqil şəkildə fəaliyyət göstərib. Yer üzündə müalicəyə müqavimət göstərən bəzi şişlər kosmosda eyni dərmanlara cavab verərək gizli davranış xüsusiyyətlərini ortaya qoyub. Bəzi hallarda tədqiqatçılar gələcək metastazla potensial olaraq əlaqəli hüceyrə hərəkətini də müşahidə ediblər.

"Encapsulate" bu məlumatlardan hər dəfə orbitə nümunələr göndərməyə ehtiyac olmadan dərmana qarşı müqavimətin və metastatik potensialın erkən əlamətlərini aşkarlaya bilən süni intellekt modeli tətbiq etmək üçün istifadəni hədəfləyir. Şişlərin təxminən 85-90 faizi Yer üzündə təhlil edilə bilər, kosmos isə ən mürəkkəb hallar üçün nəzərdə tutulur.

Hər testin qiyməti bir neçə min dollara başa gəlir, halbuki son mərhələdə xərçəngin müalicəsi üçün yüz minlərlə dollar lazımdır. "Encapsulate" indi "UConn Health", "Memorial Sloan Kettering" xərçəng mərkəzi və digər tərəfdaşlarla birgə kolorektal və pankreas xərçəngi diaqnozu qoyulmuş 100-200 xəstə ilə klinik sınaqlara başlayır.

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Cüdo Federasiyasının rəhbərliyi Azərbaycan Karate-Do Federasiyasının prezidenti

**ARİF MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3802
Sifariş 1626

Qiyməti 60 qəpik